Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

# Mədəniyyət

www.medeniyyet.az

6 APREL 2018
27 [1517]

# Dünyanın turizm yolları yenə Bakıda kəsişir

**17-ci Azərbaycan Beynəlxalq "Turizm və səyahətlər" sərgisində 20 ölkə iştirak edir**




3

## Musiqi təhsilinin optimallaşmasına xidmət edən layihə

10

Ölkəmizdə təhsil sahəsində həyata keçirilən innovativ yeniliklər tədris prosesinin optimallaşdırılmasına, effektivliyin artırılmasına xidmət edir. Mədəniyyət və Turizm Nazirliyinin yeni istifadəyə verilən Uşaq musiqi və incəsənət məktəblərinin tədris portalı (<http://music.mctgov.az>) bu baxımdan böyük əhəmiyyətə malikdir.




4

## "Dünya turizmində Azərbaycana maraq artıb"

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili ilə görüşüb. Nazir Azərbaycanda turizm sahəsinin inkişaf etdirilməsi ilə bağlı dövlət tərəfindən görülən işlər barədə qonağa geniş məlumat verib. Qeyd edib ki, bu işlərin məntiqi nəticəsi olaraq ötən il ölkəmizə gələn turistlərin sayı 20 faiz artıb. Dünya Turizm Təşkilatının baş katibi ölkəmizə ilk səfərinin "AİTF 2018" sərgisinə təsadüf etməsindən məmnunluğunu bildirib. O, dünya turizmində Azərbaycana marağın artdığını vurğulayıb.



8

## Bəstəkarlarımızın musiqisi uşaqların ifasında

Aprelin 4-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Klassik musiqi həvəskarları klubunun 10 illiyinə həsr edilən konsert-tamaşa təqdim edildi. Bəstəkarlar İttifaqı və muzeyin "Azərbaycan bəstəkarlarının musiqisi gənc ifaçıların təqdimatında" layihəsi çərçivəsində reallaşan tədbirdə Əməkdar incəsənət xadimi, bəstəkar Cəlal Abbasovun "Şən bahar" uşaq operası və "Düzgülər" kantatası nümayiş olundu.



8

## Xalça Muzeyində yeni çeşnilərin və tarixi Qarabağ xalçasının təqdimatı

Heydər Əliyev Fondunun dəstəyi ilə xaricdən ölkəmizə gətirilən XVII əsrə aid Qarabağın tanınmış "Xətayi" xalçası Azərbaycan Xalça Muzeyinə təqdim olunub.

## Viza rejimi daha da sadələşdiriləcək

Azərbaycanda turizmin inkişafı məqsədilə viza rejiminin daha da sadələşdirilməsi istiqamətində əlavə addımların atılması nəzərdə tutulur. Prezident İlham Əliyev bu fikri aprelin 4-də Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Ənvər Qarqaşın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü zamanı qeyd edib.

Ölkələrimiz arasında əlaqələrə toxunan Birləşmiş Ərəb Əmirliklərinin dövlət naziri Azərbaycanda turistlər üçün viza rejiminin sadələşdirilməsini yüksək qiymətləndirərək, bunun ölkəsindən xeyli sayda turistin Azərbaycana gəlməsi işinə böyük təkan verdiyini vurğulayıb.

Prezident BƏƏ-dən Azərbaycana gələn turistlərin sayının ildən-ilə artmasını məmnunluqla vurğulayaraq turizmin inkişafı sahəsində görülən işlərə toxunub. Dövlət başçısı viza rejiminin daha da sadələşdirilməsi üçün addımların nəzərdən keçirildiyini deyərək BƏƏ-dən gələn turistlərin təkcə Bakıya deyil, regionlara da səfər etmələrinin önəmini qeyd edib.

## Könül Xasıyevaya Prezidentin fərdi təqaüdü verilib

Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli müğənni Könül Xasıyevaya Prezidentin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb. İfaçı Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə fərdi təqaüdə layiq görülüb.

# Prezident İlham Əliyev Dünya Turizm Təşkilatının baş katibini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvilini qəbul edib.**



Dövlət başçısı Zurab Pololikaşvilini Dünya Turizm Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik edib və ona işində uğurlar arzulayıb. Prezident Azərbaycanın Dünya Turizm Təşkilatı ilə ənənəvi uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq Zurab Pololikaşvilinin səfərinin əlaqələrin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Azərbaycan rəhbəri ilə görüşündən qürur hissi keçirdiyini deyən Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili qurumun və özünün fəaliyyətinə ölkəmizin verdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Söhbət zamanı Azərbaycanda son illər turizmin sürətlə inkişaf etdiyi, ölkəyə gələn xarici qonaqların sayının durmadan artdığı məmnunluqla qeyd olunub, Bakıda və regionlarda turizmin inkişafı üçün müasir infrastrukturun yaradılması istiqamətində genişmiqyaslı işlərin həyata keçirildiyi vurğulanıb, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

**Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev aprelin 5-də Bolqarıstan Respublikasının turizm nazirinin müavini İrena Georgiyeva ilə görüşüb.**

# Bolqarıstanla turizm sahəsində birgə fəaliyyət planı hazırlanacaq

### İki ölkənin turizm sənayesi nümayəndələrinin qarşılıqlı infoturları təşkil olunacaq



Nazir qonağı salamlayaraq, onun 17-ci Azərbaycan Beynəlxalq "Turizm və səyahətlər" sərgisində ("AİTF 2018") iştirak məqsədilə ölkəmizə səfərindən məmnunluğunu ifadə edib. Bolqarıstanın artıq bir neçə ildir Bakıda keçirilən sərgidə milli stendlə iştirak etdiyi, bu ölkənin turizm şirkətləri və mehmanxanalarının sərgiyə maraq göstərdiyi vurğulanıb.

Nazir Azərbaycanla Bolqarıstan arasında turizm sahəsində sazişə əsasən iki ölkənin birgə layihələrinin daha da sürətləndirilməsi və turizm sənayesi nümayəndələrinin 2018-ci il ərzində qarşılıqlı infoturlarının keçirilməsinin zəruriliyini qeyd edib. Həmçinin, Azərbaycanın turizm potensialına son illər marağın artdığı nəzərə alınaraq, müxtəlif ölkələrdən olan turistlər üçün bir sıra turizm məhsullarının təklif olunduğu diqqətə çatdırılıb.

İrena Georgiyeva səmimi qəbula görə təşəkkürünü bildirərək, Bolqarıstanın bir çox seqmentlər üzrə Azərbaycan turistlərinə cəlbedici ola biləcəyini deyib və Azərbaycan tərəfinin təkliflərini dəstəklədiyini, işçi qaydada görüşlərin keçirilməsinin vacibliyini bildirib.

Görüşdə Bakı və Sofiya arasında "Buta Airways" aviaşirkəti vasitəsilə uçuşların həyata keçirildiyi nəzərə alınaraq, turist mübadiləsi üçün qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsi və birgə fəaliyyət planının hazırlanması qərara alınıb.

## "Bakı Prosesi" ildən-ilə daha böyük coğrafiyanı əhatə edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" ildən-ilə genişlənərək daha böyük coğrafiyanı əhatə edir. Bu fikir aprelin 5-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin xarici işlər nazirlərinin "Davamlı inkişaf naminə beynəlxalq sülhün və təhlükəsizliyin təşviqi" mövzusunda keçirilən konfransı çərçivəsində "Bakı Prosesi"nin təqdimatında bildirilib.

Tədbirdə çıxış edən Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və xarici işlər naziri Elmar Məmmədyarov konfrans iştirakçılarına "Bakı Prosesi" barədə məlumat veriblər.

Bildirilib ki, bu il "Bakı Prosesi"nin 10 illiyi qeyd olunur. "Bakı Prosesi" 2008-ci ilin dekabrında paytaxtımızda keçirilən Avropa və ona qonşu regionların mədəniyyət nazirlərinin konfransında irəli sürülüb. Bu konfransda ilk dəfə olaraq on islam ölkəsinin də iştirak etməsi ilə yeni bir formatın əsası qoyuldu. Ümumilikdə 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksək səviyyəli nümayəndələrinin iştirak etdikləri konfransda Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı bəyannaməsi" qəbul edildi. Beləliklə, sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan "Bakı Prosesi"nin əsası qoyuldu.

Həmin konfransda Azərbaycan Prezidenti İlham Əliyevin nitqi, irəli sürdüyü təkliflər və tövsiyələr "Bakı Prosesi"nin qlobal bir təşəbbüsə çevrilməsinə səbəb oldu. Ötən dövrdə Bakıda dörd dəfə Dünya Mədəniyyətlərarası Dialoq Forumu, eləcə də bir sıra konfranslar, seminarlar və digər tədbirlər keçirilib.

# "Sən yadıma düşəndə"

### Elza İbrahimovanın sevilən mahnıları tələbələrin ifasında

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) və Beynəlxalq Muğam Mərkəzinin "Yeni nəsil dəvət edir" birgə layihəsi çərçivəsində aprelin 4-də görkəmli bəstəkar Elza İbrahimovanın yaradıcılığına həsr olunan "Sən yadıma düşəndə" adlı konsert keçirilib. Konsertdə tələbələr bəstəkarın sevilən mahnılarını ifa ediblər.

Tədbirdə bəstəkarın unudulmaz və dilləri əzbəri olan "Bakının işıqları", "Sənsizliyin içində", "Ey Vətən", "O gözlər", "Sevgilim, tut əlimdən", "Bilməzdim", "Sən yadıma düşəndə", "Qurban verərdim", "Səslə məni", "Daha məndə dözüm yox", "Unuda bilməzsən", "Gecələr bulaq başı", "Gəl barışaq", "Sən bir nəğmə, mən bir nəğmə", "Mehribanım" və digər mahnıları səsləndirilib.




İfaçıları ADMİU-nun xalq çalğı alətləri ansamblı və Xalq artisti, professor Zamiq Əliyev müşayiət edib. Konsertin bədii rəhbəri isə Estrada sənəti kafedrasının müdiri Məryəm Babayevadır.

## "Təki Vətən sağ olsun"

Azərbaycan İstiqlal Muzeyində Bakı şəhəri E.Qaranzadə adına 270 saylı tam orta məktəbin təşkilatçılığı ilə Aprel döyüşlərinin (2016) ildönümünə həsr edilmiş "Təki Vətən sağ olsun" adlı açıq dərs keçirilib.

Məktəbin Azərbaycan dili və ədəbiyyatı müəlliməsi Ülviyyə Şahbazovanın rəhbərliyi ilə 4a, 6a və 7b sinif şagirdləri müasir hərb tariximizin şanlı səhifəsi olan Aprel döyüşləri şəhidlərinin əziz xatirəsinə həsr olunmuş kompozisiya nümayiş etdiriblər.

Sonda məktəbin şagirdləri muzeyin ekspozisiyası ilə tanış olublar.

# Dünyanın turizm yolları yenə Bakıda kəsişir

## 17-ci Azərbaycan Beynəlxalq "Turizm və səyahətlər" sərgisinin açılışı keçirildi

**Aprelin 5-də Bakı Ekspo Mərkəzində 17-ci Azərbaycan Beynəlxalq "Turizm və səyahətlər" sərgisinin ("AİTF 2018") açılışı oldu. Xəzəryanı regionda turizm sənayesinin ən böyük tədbiri sayılan AİTF ənənəvi "Bütün dünya - bir sərgi" şüarı altında keçirilir. Sərgi Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, "İteca Caspian" və onun tərəfdaşı "İTE Group" şirkətlərinin (Böyük Britaniya) təşkilatçılığı ilə gerçəkləşir. AİTF eyni zamanda Birləşmiş Millətlər Dünya Turizm Təşkilatı tərəfindən dəstəklənir. Bu il sərginin fəxri qonaq ölkəsi Bolqarıstandır. Qeyd edək ki, açılış mərasimində DTT-nin baş katibi Zurab Pololikaşvili və Bolqarıstan turizm nazirinin müavini İrena Georgiyeva da iştirak edirdi.**






Mərasimdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev AİTF sərgisinin 17 ildir turizm sənayesi üzrə beynəlxalq görüş platformasına çevrildiyini dedi. Ölkəmizdə turizm sənayesinin dinamik inkişafından bəhs edən nazir bildirdi ki, son illər bu istiqamətdə dövlət başçısı tərəfindən mühüm qərarlar qəbul olunub. Bunun nəticəsidir ki, ötən il ölkəmizə gələn turistlərin sayında 20 faiz artım müşahidə edilib. 2018-ci ilin ilk üç ayında isə Azərbaycana gələn turistlərin sayında 12, 5 faiz artım qeydə alınıb.

Diqqətə çatdırıldı ki, bir sıra ölkələrin vətəndaşları üçün 2016-cı ildən etibarən hava limanlarında sadələşdirilmiş viza rəsmiləşdirilməsinə başlanılması Azərbaycana səyahət edən xarici turistlərin sayını əhəmiyyətli dərəcədə artırıb. Bu qəbildən ölkələrin coğrafiyasının genişləndirilməsi nəzərdə tutulur.

"AİTF 2018"in əhəmiyyətindən söz açan Əbülfəs Qarayev bildirdi ki, sərgi ötən illərdə regionun müasir turizm bazarının ümumi mənzərəsini əks etdirməklə yanaşı, dünyanın müxtəlif guşələrinin koloritini təqdim edən beynəlxalq sərgi statusunu daha da möhkəmləndirib. Builki sərginin də bu ənənələrin nümayişi üçün böyük imkanlar açdığını dilə gətirən nazir beynəlxalq tədbirin işinə uğurlar arzuladı.

### "Beynəlxalq əhəmiyyətli tədbirlər Azərbaycana daha çox turist cəlb edəcək"

Tədbirdə çıxış edən Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili bildirdi ki, 2017-ci il Azərbaycan turizm sektorunun inkişafı üçün çox gözəl il olub: "Keçənilki artıma görə Azərbaycan hökumətini təbrik edirəm. Mən görürəm ki, bu sərgidə iştirak edən ölkələrin sayının artması Azərbaycana olan marağı daha bariz ifadə edir. Düşünürəm ki, bu sektorun inkişafı üçün qadınlara və gənclərə imkan yaradılması vacib məsələlərdən biridir. Yeni texnologiyaların tətbiqi bu sahənin daha da irəli getməsinə gətirib çıxaracaq. Beynəlxalq əhəmiyyətli tədbirlər Azərbaycana daha çox turist cəlb edəcək və turistlər Bakının necə gözəl şəhər olduğuna özləri şahid olacaqlar".

Bolqarıstanın turizm nazirinin müavini İrena Georgiyeva ölkəsinin Qafqazın ən böyük sərgisi sayılan "AİTF"in tərəfdaşı olmasından məmnunluğunu dilə gətirdi: "Sərgi çərçivəsində reallaşacaq görüşlər iştirakçı dövlətlər arasında turizm sahəsində əlaqələrə təsir göstərəcək. Əməkdaşlığımızın nəticəsi olaraq bu ilin yanvarında Bakı-Sofiya aviareysi açılıb. Bu da öz növbəsində ikitərəfli turizm axınlarına müsbət təsirini göstərməkdədir. Ötən il Azərbaycandan Bolqarıstana səfər edən turistlərin sayı 3300, ölkəmizdən Azərbaycana səfər edən turistlərin sayı isə 2100 nəfər olub. Ölkələrimizin böyük turizm potensialı var və biz bu potensialdan daha səmərəli istifadə edərək qarşıdakı illərdə turist səfərlərini artıra bilərik".



### Sərgidə 20 ölkə təmsil olunur

Təşkilatçı "İTE Group" şirkətinin regional direktoru Edvard Stroon tədbirə qatılmasından məmnunluğunu ifadə etdi, "AİTF 2018" sərgisi haqqında ətraflı məlumat verdi. Bildirdi ki, sərgidə 20 ölkədən 277 şirkət iştirak edir. İştirakçılar arasında Azərbaycan, Bolqarıstan, Çexiya, Dominikan, Gürcüstan, İndoneziya, İtaliya, İsveçrə, Mərakeş, Rusiya, Sloveniya, Tailand, Türkiyə və digər ölkələri təmsil edən şirkətlər yer alır. Bu il həmçinin Şərqi Yava (İndoneziya) sərgidə debüt edir. Ziyarətçilər sərginin davam etdiyi üç gün ərzində 90-dan çox xarici turizm istiqaməti və ölkə daxilində istirahət imkanları ilə tanış ola biləcəklər. Sərgidə hava yolları və hotel şəbəkələri, eləcə də turizm sahəsi üzrə digər xidmət növləri təqdim edilir.

Tibbi və sağlamlıq turizmi sektoru geniş təqdim olunur. Bu sektordan Çexiya, Rusiya, Sloveniya, Türkiyə, Ukrayna və digər ölkələri təmsil edən tibb mərkəzləri, klinika, sağlamlıq ocağı və sanatoriyalar sərgidə iştirak edir.

E.Stroon vurğuladı ki, sərgi stendlərində Bakıda keçiriləcək növbəti Şopinq festivalı barədə də ətraflı məlumat veriləcək.

* * *

Çıxışlardan sonra qonaqlar sərgi ilə tanış oldular. Hər zaman olduğu kimi, bu il də paytaxt və bölgələrin turizm potensialı sərgidə geniş şəkildə təqdim olunur.

Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Turizm Assosiasiyası (AZTA) sərgidə ayrıca stendlə iştirak edir. AZTA-nın stendi həm ölkəmizdə, həm də xaricdə turizm üzrə geniş təklifləri əks etdirir. Sərgidə İsmayıllı, Lənkəran, Masallı, Şəki, Xaçmaz və Sumqayıt regional mədəniyyət və turizm idarələrinin stendləri qurulub. Qarabağın mədəni-tarixi irsi də sərgidə nümayiş olunur.

Artıq ikinci ildir ki, "ASAN Viza" - elektron viza portalı sərgidə öz stendi ilə iştirak edir. Bu stend vasitəsilə Azərbaycanda elektron vizanın alınmasının bütün incəlikləri və üstünlüklərini öyrənmək mümkündür.

Bakının tarixi mərkəzi olan qədim İçərişəhərdə turizmin inkişaf imkanları Nazirlər Kabineti nəzdində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən nümayiş etdirilir.

Beynəlxalq tədbir günlərində iştirakçılar və yerli turoperatorlar arasında işgüzar əlaqələrin qurulması üçün geniş imkanlar yaradacaq seminarın keçirilməsi nəzərdə tutulur.

Sərgi çərçivəsində 12-ci Qafqaz Beynəlxalq "Mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar" sərgisi ("Horex Caucasus 2018") də start götürüb.

"AİTF 2018" sərgisi aprelin 7-dək davam edəcək.

**Fariz Hüseynov**

## Regionlarda turizmin inkişafı sürətləndiriləcək

Azərbaycanın şimal-qərb regionunda, İpək Yolu üzərində turizmin inkişafını sürətləndirməyi nəzərdə tuturuq. Son dövrlər Qazax, Şəmkir, Gədəbəy zonasında turizm sahəsində inkişaf müşahidə olunur.

Bu sözləri mədəniyyət və turizm naziri Əbülfəs Qarayev AİTF sərgisində jurnalistlərə açıqlamasında bildirib.

Nazir qeyd edib ki, Azərbaycanın cənub zonasında turizm sektorunun yaxşı perspektivləri var: "Bu yay mövsümündə də cənub istiqamətində turist axını gözləyirik. Sözsüz ki, ənənəvi olaraq Quba, Xaçmaz, Nabran bölgəsi də işləyəcək. Bu il qış mövsümündə Aran zonasına ovçuluq məqsədilə turist axını artıb. Bu, yerlərdə yeni hotellərin inşasına təkan verir. İndi demək olar ki, hər bir rayonda normal xidmət göstərən hotellər var".

## "Baku Travel Bazaar"ın ənənəvi mövsüm yarmarkası

"JW Marriott Absheron" hotelində "Baku Travel Bazaar Spring Edition" ənənəvi mövsüm yarmarkası və turizm sektoru peşəkarlarının görüşü keçirilib. Dünya turizm sənayesinin aparıcı nümayəndələrinin iştirak etdiyi tədbir "Chance Travel Consulting" (Ukrayna) və "R&S Group" (Azərbaycan) şirkətləri tərəfindən təşkil olunub.

Yarmarka çərçivəsində öz xidmətlərini təqdim etmək üçün 60 hotel, mehmanxana şəbəkəsi və kurortların, turoperatorların, yaxta, villa və avtomobil kirayəsi üzrə ixtisaslaşmış şirkətlərin nümayəndələri Bakıya səfər ediblər. Azərbaycan və Gürcüstanın 300-dən çox aparıcı turizm şirkətinin əməkdaşları bu tədbirdə öz xarici həmkarları ilə görüşüblər.

# “Dünya turizmində Azərbaycana maraq artıb”

## DTT-nin baş katibi ölkəmizə ilk səfərinin AİTF sərginə təsadüf etməsindən məmnunluğunu bildirib



**Aprelin 4-də mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili ilə görüşüb.**

Nazir Azərbaycanda turizm sahəsinin inkişaf etdirilməsi ilə bağlı dövlət tərəfindən görülən işlər barədə qonağa geniş məlumat verib. Qeyd edib ki, bu işlərin məntiqi nəticəsi olaraq ötən il ölkəmizə gələn turistlərin sayı 20 faiz artıb.

Azərbaycanın regional turizmin inkişafında maraqlı olduğunu qeyd edən Əbülfəs Qarayev uzaq ölkələrdən səfər edən turistlər üçün Azərbaycan-Türkiyə-Gürcüstanı əhatə edən İpək Yolu turizm marşrutunun təklif olunduğunu vurğulayıb.

Söhbət zamanı turizm sahəsində kadr hazırlığından da danışılıb və Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) fəaliyyəti haqqında məlumat verilib. Qeyd olunub ki, ATMU Avstriyanın nüfuzlu Krems Universiteti ilə əməkdaşlıq edir və tədrisdə bu ali məktəbin proqramından da istifadə olunur, həmçinin məzunların bir qisminə ikili diplom verilir.

Zurab Pololikaşvili Dünya Turizm Təşkilatının baş katibi kimi ölkəmizə ilk səfərinin 17-ci Azərbaycan Beynəlxalq “Turizm və səyahətlər” sərgisinə (“AİTF 2018”) təsadüf etməsindən məmnunluğunu bildirib. O, dünya turizmində Azərbaycana marağın artdığını vurğulayıb. Həmçinin qeyd olunub ki, Azərbaycan Dünya Turizm Təşkilatında çox fəal təmsil olunur və bu təşkilatın layihələrində yaxından iştirak edir.

Baş katib Azərbaycanda turizm infrastrukturunun inkişafı ilə bağlı dövlət tərəfindən görülən işlərin nəticəsi olaraq gələcəkdə Azərbaycana turist axınının daha da artacağına əminliyini ifadə edib.

Görüşdə daha sonra ölkədə turizm sahəsinin inkişafı ilə bağlı Azərbaycan və Dünya Turizm Təşkilatı arasında görülən işlərdən danışılıb.

* * *

Aprelin 5-də Dünya Turizm Təşkilatının baş katibi Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib. Zurab Pololikaşvili ulu öndərin məzarı önünə gül dəstəsi qoyaraq xatirəsini ehtiramla yad edib. Qonaq görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın məzarını da ziyarət edib.

Dünya Turizm Təşkilatının baş katibini ziyarət zamanı mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədov və nazirliyin digər əməkdaşları müşayiət ediblər.

# ATMU-da Dünya Turizm Təşkilatının baş katibi ilə görüş keçirilib



**Aprelin 5-də Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) BMT-nin Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili ilə görüş keçirilib.**

Görüşdə çıxış edən ATMU-nun rektoru İlham Mədətov ölkəmizin turizm potensialı, turizmin inkişafı istiqamətində həyata keçirilən layihələr haqqında danışıb. Qonağa universitetin fəaliyyəti haqqında məlumat verən İlham Mədətov qeyd edib ki, 2006-cı ildə yaradılan ali məktəb ötən müddətdə beynəlxalq təcrübəni tətbiq edərək turizm sənayesi üçün kadrların hazırlanması işində bir sıra uğurlara imza atıb.

Diqqətə çatdırılıb ki, universitetdə 2018-ci ildən etibarən MBA proqramları üzrə qəbul başlanılacaq. ATMU kadr hazırlığı üzrə beynəlxalq əlaqələrini də genişləndirir və ölkəmizdə ilk ikili diplom verən ali təhsil müəssisəsidir.

Hazırda üç fakültə və on kafedrada on bir ixtisas üzrə bakalavriat səviyyəsində 1600-dən çox, magistraturada 157, doktoranturada 26, dissertanturada 18, əlavə təhsil üzrə 28, həmçinin ilk peşə-ixtisas təhsili üzrə Bakı Turizm Peşə Məktəbində 12 ixtisas üzrə 440 nəfər təhsil alır.

ATMU ötən 12 ildə bir çox beynəlxalq təşkilatlarda layiqincə təmsil olunub. O cümlədən 2011-ci ildən Dünya Turizm Təşkilatının “qoşulmuş üzvü”, 2012-ci ildən isə “Bilik Şəbəkəsi”nin üzvü kimi qurumun keçirdiyi tədbirlərin fəal iştirakçısıdır.

Sonra Zurab Pololikaşvili çıxış edərək səmimi qəbula və göstərilən diqqətə görə universitet rəhbərliyinə təşəkkür edib. Azərbaycanın böyük turizm potensialının olduğunu vurğulayan qonaq ölkəmizin Dünya Turizm Təşkilatı ilə əlaqələrini də yüksək qiymətləndirib.

DTT-nin baş katibi ATMU kollektivinə Azərbaycanın turizm sənayesi infrastrukturunun formalaşması və daha da təkmilləşməsində əsaslı rol oynayacaq ixtisaslı kadr hazırlığı sahəsindəki peşəkar fəaliyyətində uğurlar arzulayıb.

**Fariz**



# Amerikalı professor tələbələrin suallarını cavablandırıb

Aprelin 4-də Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) ABŞ-ın Şərqi Karolina Universitetinin professoru xanım Pagie Viren ilə görüş keçirilib.

ATMU-dan bildirilib ki, qonaq ali məktəbin turizm və hotelçilik ixtisası üzrə bakalavr pilləsinin ingilis dilində təhsil alan tələbələrinə ABŞ-da turizmin müasir vəziyyəti, ekoturizm və marketinq barədə ətraflı məlumat verib və onların suallarını cavablandırıb.

ATMU-nun tədris işləri üzrə prorektoru İranə Əliyeva, Turizm və qonaqpərvərlik fakültəsinin dekanı Rəhman Səfərov, fakültənin dekan müavini Flora Ələsgərova və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Orxan Musa amerikalı professoru universitetdə tədris olunan fənlər, beynəlxalq əlaqələrin qurulması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumatlandırıblar.

**F.Hüseynov**

# Uşaq incəsənət məktəbinin kollektivi təltif olunub



Aprelin 4-də Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin rəisi Vuqar Zeynalov Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq incəsənət məktəbinin müəllim və şagirdləri ilə görüşüb.

İdarə rəisi məktəbin kollektivini uğurlar münasibətilə təbrik edib. Qeyd olunub ki, martın 15-də Beynəlxalq Muğam Mərkəzində görkəmli musiqiçi, cazmen Vaqif Mustafazadənin doğum günü ərəfəsində onun adını daşıyan incəsənət məktəbinin şagirdləri maraqlı konsert proqramı ilə çıxış ediblər. Kollektivə gələcək fəaliyyətində yeni nailiyyətlər arzu edən V.Zeynalov Vaqif Mustafazadəyə həsr olunmuş konsertdə uğurlu çıxışlarına görə məktəbin şagirdlərinə fəxri fərmanlar təqdim edib.

# “Günahsız günahkarlar” qastrol səfərində

Gənclər və İdman Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin şəbəkəsində olan Bakı Uşaq Teatrında hazırlanan “Günahsız günahkarlar” tamaşası 2-4 aprel tarixində Siyəzən, Şabran, Quba, Qusar və Xızı rayonlarında nümayiş olunub. İnsan alveri, bu cinayətkar əməllərin acı nəticələrindən bəhs edən əsərin müəllifi Arzu Soltan,



tamaşanın quruluşçu rejissoru İntiqam Soltan, rəssamı Sevda Məmmədova, bəstəkarı Mahir İbrahim, rəqslərin quruluşçusu Könül Şahbazovadır.

# Tvinninq layihəsinin yekun tədbiri keçirildi

## Əldə olunan təcrübə mədəniyyətin idarə edilməsində daha səmərəli fəaliyyətə imkan yaradacaq





**Aprelin 4-də Milli İncəsənət Muzeyində "Mədəniyyət sektorunun siyasəti və idarə olunması sisteminin modernləşdirilməsində Mədəniyyət və Turizm Nazirliyinə dəstək" Tvinninq layihəsinin yekun tədbiri keçirildi.**

Tədbirdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirdi ki, 2 il müddətində davam edən layihə Azərbaycan hökuməti və Avropa İttifaqı (Aİ) tərəfindən imzalanmış sazişə əsasən reallaşıb. Tvinninqin mövzusu Azərbaycan mədəniyyət sisteminin təkmilləşdirilməsi və onun idarəetmə üsullarının modernləşdirilməsidir: "Layihə çərçivəsində böyük işlər görülüb. Həm yerli, həm də xarici mütəxəssislər paytaxt və regionlarda muzey, klub, kitabxana və digər mədəniyyət ocaqlarının fəaliyyəti ilə bağlı əhatəli təhlillər aparıblar. Azərbaycanda mədəni irsin qorunması və onun istifadə olunması ilə bağlı tədqiqat işləri həyata keçirilib. Bu layihənin əsas məqsədlərindən biri də odur ki, Avropada tətbiq edilən təcrübə tədricən Azərbaycana daxil olsun və ölkəmizin mədəniyyəti Avropanın və dünyanın ən müasir metodları ilə idarə olunsun. Burada əsas məqsəd həm idarəetmə sisteminin təkmilləşdirilməsi, həm də maliyyə mənbəyinin müxtəlifliyinin təmin olunmasıdır".

Qeyd olundu ki, Tvinninq layihəsinin gerçəkləşməsi Avropa İttifaqının qərarına əsasən İtaliya hökumətinin köməkliyi ilə reallaşıb: "İtalyanların təcrübəsi bizim üçün çox maraqlı oldu. Bizim mütəxəssislər bir neçə dəfə bu ölkədə səfərdə oldular, treninqlər həyata keçirildi. Qarşılıqlı şəkildə məhsuldar sənədlər hazırlanıb və bu gün yekun olaraq onların təqdimatı keçiriləcək. Layihənin iştirakçılarına təşəkkür edərək bildirirəm ki, bu təcrübə bizim üçün olduqca vacibdir. Biz ən qabaqcıl təcrübəni istifadə edəcəyik. Bu, layihə çərçivəsində ilk birgə iş deyil. Beş il əvvəl turizm sahəsi üzrə həyata keçirilən Tvinninq layihəsinin müsbət nəticələrinin şahidiyik".

### Mədəni irsin iqtisadi aktivə çevrilməsi

Nazir bildirdi ki, bu layihə mədəniyyətin bütün sahələrini əhatə edir. Layihə əsasında 13 mühüm sənəd hazırlanıb, İsmayıllı, Lənkəran və digər regionları əhatə edib. Digər regionlar da bu prosesdən məlumatlıdır və onlar da zamanla işlərini bu sistem üzrə qurmalıdırlar. Layihənin vacib tərəflərindən biri Azərbaycanın mədəni irsinin dünyada tanıdılması və təbliğidir: "Bilirsiniz ki, ölkə rəhbərliyinin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səyləri nəticəsində Azərbaycanın mədəniyyəti bütün dünyada tanıdılır və qəbul edilir, maddi-mədəni irs nümunələrimiz UNESCO-nun qorunan incilər siyahısında yer alıb. Prezident İlham Əliyevin mədəniyyət sahəsi üzrə əsas göstərişlərindən biri də budur ki, Azərbaycan mədəniyyəti, bizim mədəni sərvətlər dünya təcrübəsinə uyğun təqdim edilməlidir. Avropa təcrübəsi mədəniyyətin özünə ziyan vermədən dövlətə, xalqa, bu sahədə işləyən insanlara əlavə vəsait gətirməsinə şərait yaradır. Bir sözlə, mədəni irsi iqtisadi aktivə çevirməyi öyrədir. Tvinninq layihəsi çərçivəsində əldə olunan təcrübə gələcəkdə mədəniyyətin idarə edilməsi sahəsində görüləcək işləri təxmin etməyə, daha səmərəli fəaliyyətə imkan yaradacaq. İşimizi dünyada qəbul edilən qaydalar və üsullara əsasən qurmaqla, insanların mədəni istirahətini təşkil etməklə həm də dövlətimiz və çalışdığımız sahə üçün maliyyə qazanılmasına şərait yaratmalıyıq. Tvinninq layihəsi çərçivəsində həyata keçirilən işlər sübut etdi ki, Azərbaycanın mədəniyyət sahəsi kifayət qədər islahatlara hazırdır".

Əbülfəs Qarayev sonda nazirliyin qarşısında duran əsas məqsədlərlə tədbir iştirakçılarını tanış etdi və bildirdi ki, layihə ilə bağlı təklifi olan hər bir mütəxəssis bu haqda nazirliyə müraciət edə bilər.

### "Azərbaycanın zəngin irsi layihənin əhatəli şəkildə reallaşmasına şərait yaradıb"

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas layihənin ən yaxşı təcrübəsinin Azərbaycanda tətbiq olunduğunu dedi. Qeyd edildi ki, Azərbaycanın zəngin mədəni irsi layihənin əhatəli şəkildə reallaşmasına şərait yaradıb: "Bu gün Azərbaycan və Avropa İttifaqı bir-birini kəşf etməkdədir və Azərbaycan Tvinninq layihəsindən bəhrələnən ölkələr arasında ön sıralardadır".

Vurğulandı ki, layihənin müsbət tərəflərindən biri də Avropa ölkələrindən olan turistlərin Azərbaycana marağını cəlb etməkdir. May ayında Aİ tərəfindən təşkil ediləcək tolerantlıq festivalına Azərbaycanın dəvət edilməsinin əsas səbəbi ölkənin mədəni sərvətlərinin zənginliyidir.

İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari qeyd etdi ki, mədəniyyət sahəsində əməkdaşlığın inkişafı ölkələr arasında siyasi münasibətlərə də öz töhfəsini verir: "Ekspertlərimiz Azərbaycana daha çox turist cəlb edilməsi istiqamətində müvafiq bilik və bacarıqlarını bölüşüblər. Layihə Azərbaycana mədəni irsdən iqtisadi səmərə əldə etmək imkanı yaradır. İtalyan ekspertlərin əsas məqsədi burada öz təcrübələrini bölüşmək idi. Əgər ölkənin milli kimliyi, mədəni irsi varsa, bundan qürur duyub onu iqtisadi aktivə çevirmək lazımdır. Azərbaycan da bu baxımdan ilk sıralarda olan ölkələrdəndir".

Benefisiar ölkə üzrə layihə rəhbəri, Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Vasif Eyvazzadə, Aİ-yə üzv ölkə üzrə layihə rəhbəri Adele Çesi çıxış edərək bildirdilər ki, çağdaş dövrümüzdə mədəniyyət sektoru ölkənin sosial və iqtisadi həyatında mühüm yer tutur və digər sahələr kimi onun yerli və beynəlxalq qurumlar tərəfindən dəyərləndirilməsi vacibdir. Avropanın mədəniyyət sektorunun qabaqcıl təcrübələrinə əsaslanaraq mədəniyyət sektorunun effektiv idarə edilməsinin ölkənin gəlirlərinin artmasına və ümumi gəlirinə nə qədər böyük töhfələr verə biləcəyi, eləcə də Azərbaycan nümunəsində onun iqtisadi diversifikasiya və sosial inkişaf istiqamətində tərəqqisinə təsiri danılmazdır.

Rezident Tvinninq müşaviri Alessandro Bianki çıxış edərək layihənin nəticələri ilə bağlı hesabatı təqdim etdi. Bildirdi ki, mədəni irsi sosial vasitəyə çevirmək müasir dövrün əsas şərtlərindən biridir.

Tvinninq müşavirinin həmkarı Ramil Abbəkirov layihənin veb-saytı haqqında iştirakçılara məlumat verdi. Qeyd etdi ki, saytın yaradılmasında məqsəd layihənin nəticələrini bir araya gətirərək effektli işin qurulmasına xidmət etməkdir. Saytda layihə çərçivəsində qəbul edilən bütün sənədlər əksini tapıb, 2 il müddətində həyata keçirilən tədbir və görüşlər, treninqlər barədə məlumatlar yerləşdirilib. Əlaqə bölməsində mütəxəssisləri maraqlandıran suallar cavablandırılacaq.

Tədbirin sonunda nazir Əbülfəs Qarayev layihənin yekunları və sayta əlavələrlə bağlı öz tapşırıq və tövsiyələrini verdi, layihənin reallaşmasında əməyi keçən hər kəsə təşəkkür etdi. Bildirdi ki, layihə dövlət əhəmiyyətli bir işdir və regionlarda yerli orqanlarla birlikdə bu nəticələri reallaşdıraraq məhsuldar işləmək hər bir mədəniyyət ocağının qarşısında duran əsas vəzifələrdən biri olmalıdır.

Qeyd edək ki, layihə Avropa İttifaqının "Avropa Qonşuluq Siyasəti" çərçivəsində Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyi və İtaliyanın Mədəni İrs, Fəaliyyətlər və Turizm Nazirliyi arasında əməkdaşlıq şəraitində reallaşdırılıb.

**Lalə**

# "Arşın mal alan"ın özbəkcə yeni tamaşası



Daşkənddəki "Diydor" teatr-studiyasında Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının özbək dilində nümayişi keçirilib. Tədbirdə ölkəmizin Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbərliyi, Özbəkistanın mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Tamaşanın rejissoru Özbəkistanın Xalq artisti Bahadur Yuldaşev, rəssamı Dono Ganiyevadır. Əsas rolları Olmas Orayev, Xurşida Arabşoeva, Adiz Rajabov ifa ediblər. Musiqi tərtibatçıları arasında Özbəkistanda tanınan saz ifaçısı, soydaşımız İlham Abdullayev də var.

"Arşın mal alan" ilk dəfə Özbəkistanda 1919-cu ildə Daşkəndin "Kolizey" teatrında tamaşaya qoyulub. Həmin il Bakıdan gələn rejissor Mirzə Həbib Axundzadə Səmərqənddə yaşayan azərbaycanlılardan ibarət teatr truppası yaradıb və əsər bu qədim şəhərdə səhnələşdirilib. 1921-ci ildə musiqili komediya Buxarada da tamaşaya qoyulub. 1922-ci ildə isə Daşkəndin "Raxat bağçası" teatrında Sidqi Ruhullanın rəhbərliyi ilə Azərbaycandan gələn aktyorlar musiqili komediyaya səhnə həyatı veriblər.

Sonrakı illərdə "Arşın mal alan" dəfələrlə Özbəkistanın şəhərlərində təqdim edilib. Bir neçə il əvvəl isə Daşkənddəki Operetta Teatrında rus dilində səhnələşdirilib.

# “Şirinlər” səhnəyə çıxır

**Mart ayında bayramqabağı balaca teatrsevərlərə ardıcıl olaraq iki tamaşa təqdim etmiş Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı növbəti premyeraya hazırlaşır. Mövsümün repertuar planına əsasən, bu dəfə uşaqların mavi ekrandan yaxşı tanıdıqları qəhrəmanlar teatrın səhnəsinə çıxacaqlar.**



Söhbət Peyo təxəllüsü ilə məşhurlaşan Pyer Külliforun “Şirinlər” pyesi əsasında eyniadlı yeni tamaşadan gedir.

Kiçikyaşlı məktəblilər üçün nəzərdə tutulmuş tamaşada xeyirxahlıq, insanların bəd əməllərdən uzaqlaşdırılması, hər kəsin dost və mehribanlıq şəraitində yaşaması kimi nəcib hislər aşılanır. Səhnə əsərinin quruluşçu rejissoru Elşad Rəhimzadə, rəssamı Şahin Hüseynli, geyim üzrə rəssamı Yekaterina Bıçkova, musiqi tərtibatçısı İradə Muradova, rejissor assistenti Günay Qasımovadır. Plastik həll Ceyhun Dadaşova həvalə edilib.

“Şirinlər” tamaşasında əməkdar artistlər Rasim Cəfər, Şəfəq Əliyeva, həmçinin Ədalət Əbdülsəməd, Rəşad Səfərov, Elnur Hüseynov, Zemfira Əbdülsəmədova, Günel Məmmədova, Asya Atakişiyeva, Xəyalə Meydanova, Nuranə Hüseynova, Anar Seyfullayev səhnəyə çıxacaqlar.

Hələlik tamaşanın masaətrafı məşqləri gedir. Teatrın mətbuat xidmətindən aldığımız məlumata görə, tamaşanın 1 iyun - Beynəlxalq uşaqları müdafiə günündə oynanılması nəzərdə tutulub.



# “Kişi, qadın, pəncərə...”

## Komediya - Rey Kunidən, tərcümə - Mişindən, tamaşa - bizdən

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında tanınmış ingilis dramaturqu, “vəziyyət komediyası”nın (“situation comedy” - sitcom) ustası Rey Kuninin əsəri tamaşaya hazırlanır. Müəllifin «Qarışıqlıq» adlandırdığı pyes postsovet məkanında Mixail Mişinin tərcüməsində «13 №-li» adı ilə məşhurdur. Teatrın mətbuat xidmətindən bildiriblər ki, müəllifin razılığı ilə əsər «Kişi, qadın, pəncərə... məşuq» adı ilə Bakı tamaşaçısına təqdim ediləcək.

Xalq artisti İranə Tağızadənin quruluş verdiyi “sitkom” qəhrəmanların aramsız olaraq düşdüyü ekssentrik situasiyalar kaleydoskopuna çevrilir. İngiltərə parlamentinin üzvü ser Uilli beşulduzlu «Vestminster» hotelində nömrə kirayələyir ki, burada ürəkaçan bir axşam keçirsin. İşə bax ki, pəncərələri «Biq-Ben»ə baxan otağın nömrəsi 13 imiş! Elə tamaşadakı bütün gərginliklər nəhs rəqəmin ucbatından başlayır. Sonra da... Daha nələr olacaq, nə baş verəcək, bütün bunları 3 və 4 may tarixinə nəzərdə tutulmuş premyerada biləcəyik.

«Kişi, qadın, pəncərə... məşuq» tamaşasında Xalq artisti Səfa Mirzəhəsənov, əməkdar artistlər Fuad Osmanov, Natalya Baliyeva və Elmira Aslanova, aktyorlar Teymur Rəhimov, Həcər Ağayeva, Murad Məmmədov və başqaları məşğuldur. Tamaşanın rəssamı Aleksandr Fyodorov, geyim rəssamı Olqa Abbasovadır. Pyesin xoreoqrafik və plastik həlli Fuad Osmanov və Mariya Dubovitskayaya, musiqi tərtibatı isə Vladimir Neverova həvalə edilib.

**Gülcahan**

# Aprel axşamlarından birini “Spellbound”a ayırın

İtaliyanın ölkəmizdəki səfirliyi ilə əməkdaşlıq proqramını davam etdirən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı rəqs sənəti pərəstişkarları üçün sürpriz hazırlayır. Teatrdan verilən məlumata görə, aprelin 21-də İtaliyanın məşhur “Spellbound” balet truppası Bakıda çıxış edəcək. Truppanın Bakıda təqdim edəcəyi proqram “Bir axşam “Spellbound”la” adlanır.

Məlumat üçün deyək ki, bu balet truppası 1994-cü ildə yaradılıb. Müasir dövrün dünya şöhrətli xoreoqraflarından Mauro Astolfi “Spellbound”u yaradarkən Avropa və ABŞ-ın müxtəlif balet məktəblərinin təcrübəsindən bəhrələnib. Lakin o, quruluş verdiyi bütün rəqslərə öz təkrarsız üslubunu da əlavə edir. Klassik balet və müasir rəqs elementlərinin üzvi sintezini tapan xoreoqraf rəqqasların ifasında qeyri-adi plastikaya nail ola bilir.

“Spellbound”un hər proqramı izləyənlərin yaddaşından uzun illər silinmir. Son illərdə truppa Venetsiya biennalesində, ənənəvi Hyuston “Dance Salad Festival”da və digər sanballı sənət göstərilərində uğurla çıxış edib.

“Spellbound” rəqs truppasının Bakıdakı çıxışı isə paytaxtımızın sakinləri və qonaqları üçün unudulmaz sənət görüşü kimi yadda qalacaq.



# Sevimli nağıl yeni tərzdə, fərqli yozumda

**Yaşından asılı olmayaraq, hər bir debüt həyəcan gətirir. A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının ”Şəngülüm, Məngülüm” tamaşasında da bu həyəcan az deyildi.**



Əvvələn, ona görə ki, sevimli nağılımızın budəfəki quruluşunda Mikayıl Müşfiqin nəzmlə yazdığı variantdan istifadə olunmuşdu. Amma Ana keçinin üç balasından biri - Şüngülüm ixtisara salınmışdı. İkincisi, dəfələrlə bu teatrda tamaşaya qoyulmuş nağıl ilk dəfə monotamaşa janrında hazırlanmışdı. Üçüncüsü və ən başlıcası, ona görə ki, bu tamaşada peşəkar kuklaçı aktyor yox, Azərbaycan Dövlət Musiqili Teatrının aktrisası Ülviyyə Əliyeva çıxış edirdi.

Nə qədər peşəkar teatr sənətçisi olsa da, ilk dəfə tamam başqa teatr janrında çıxış etmək, bir tamaşada beş kukla oynadıb, təxminən 40 dəqiqənin içində cilddən-cildə düşmək, səsini dəyişməklə yanaşı, həm də Nağılçı rolunda çıxış etmək yeni bir iş, fərqli yaradıcılıq sahəsidir.

”Şəngülüm, Məngülüm” tamaşasının quruluşçu rejissoru və ixtisarlı səhnə mətninin müəllifi Anar Məmmədovdur. O, bir aktyorun səhnə performansını gerçəkləşdirməyə kömək edən, personajların çıxdığı sandığın açılaraq meşə mənzərəsinə, Keçinin evinə, Dəmirçinin emalatxanasına çevrilən dekorasiya seçməklə nağıl-tamaşaya mobil quruluş verməyə nail olub.

Teatrın baş rəssamı İqbal Əliyev isə bir neçə kukla texnikasının sintezinə müraciət edib. Çoxpersonajlı monotamaşada bir aktyorun həm Nağılçı kimi, həm də Şəngülüm, Məngülüm, Ana keçi, Canavar və Dəmirçi obrazlarında səhnəyə çıxmasını nəzərə alaraq, qolçaq kuklalardan istifadə olunub. O ki qaldı tamaşanın yığcam dekorasiyasına və kuklaların görkəminə, uşaqların zövqünü nəzərə alaraq və onların diqqətini səhnədə mümkün qədər çox saxlamaq üçün şux və dolğun boyalardan istifadə edilib. Ana keçi kuklasında yaraşıq, Şəngülümlə Məngülümün görkəmindəsə əsl çəpişlərə xas şirinlik, Canavarın görünüşündə qorxuncluq, Dəmirçinin simasındasa nuraniliklə ağır zəhmətə qatlaşan insanın yaşadığı illərin ağırlığı öz əksini tapıb.



Tamaşaya Əməkdar artist Elza Seyidcahan musiqi bəstələyib. Mahnıların mətni elə Mikayıl Müşfiqin mənzum nağılından seçilib. Təbii ki, bütün mahnılar da elə monotamaşa ifaçısının səsi ilə lentə alınıb.

Tamaşa başlayandan ifaçı Ülviyyə Əliyevanın həyəcanı hiss olunurdu. Aktrisa özünü nə qədər ələ almağa çalışsa da, səsindəki tələş notlarını yığışdıra bilmirdi. Əslində, bu tələş notlarının nədən yarandığını biz böyüklər, özü də teatra bir köynək yaxın olanlar duyduq, balaca nağıl və teatrsevərlər üçünsə bu, tamaşadakı dramatizmə xidmət edən, ”qorxulu” əhvalatın məğzini açan bir çalar idi. Ülviyyə xanım isə artıq neçə aydan bəri üzərində çalışdığı tamaşada yeni səpkili çıxışını qüsursuz tamamladı.

Uşaqları çox sevən, lakin onların yaşlarına uyğun repertuarı olmadığından bu boşluğu doldurmaq istəyən aktrisanın riskli addımı özünü doğrultdu. Bundan sonrasını tamaşa özü yaşayacaq, onun taleyini isə XXI əsrin uşaqları müəyyən edəcək.

**G.Mirməmməd**

# Kamança ifaçılığı üzrə müsabiqənin ilk tur dinləmələri



Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmrinə əsasən ölkəmizdə kamança ifaçılığının təbliği, respublikada kamança ixtisası üzrə musiqi təhsilinin inkişaf etdirilməsi, istedadlı uşaq və gənclərin aşkara çıxarılması, dəstəklənməsi, məşhur kamança ifaçısı, Xalq artisti Habil Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə gənc ifaçıların II Respublika müsabiqəsi keçirilir.

Aprelin 3-də Şəki Regional Mədəniyyət və Turizm İdarəsinin əhatə etdiyi şəhər və rayonlardakı uşaq musiqi və incəsənət məktəblərində kamança ixtisası üzrə təhsil alan uşaq və gənclər arasında müsabiqənin region üzrə I turu keçirilib.

Şəki şəhərində təşkil olunan tədbirdə regional idarənin rəisi Mirvari Zeynalova çıxış edərək ifaçılara uğurlar diləyib. İdarənin məsləhətçisi Xatirə Səlimli müsabiqənin qaydaları haqqında məlumat verib. Müsabiqədə region üzrə 13 şagird iştirak edib. Hər şagird üç musiqi nömrəsi ifa etməklə qabiliyyətini göstərib. Münsiflər heyətinin rəyinə əsasən, 7 şagird növbəti tura vəsiqə qazanıb.



# Qubada yəhudilər Pesax bayramını qeyd edir

**Yəhudilərin azadlıq və bahar mənasını verən Pesax bayramı aprelin 3-də Qubada təntənəli şəkildə qeyd olunub. Bayram dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədəki Heydər Əliyev adına istirahət parkında keçirilib.**

Tədbirə qatılanlar rayonda yaşayan dağ yəhudilərinin tarixini, mədəniyyətini, eləcə də bayram adət-ənənələrini əks etdirən fotosərgi ilə tanış olublar.

Çıxış edənlər yəhudi və Azərbaycan xalqları arasındakı dostluq münasibətlərindən danışıb, bu əlaqələrin tarixi köklərə söykəndiyini qeyd ediblər.

Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev Qırmızı qəsəbədə 3 mindən çox dağ yəhudisinin yaşadığını diqqətə çatdırıb. Bildirib ki, rayonda 60-a yaxın məscidlə yanaşı, yəhudilərə məxsus iki sinaqoq və dini icma da fəaliyyət göstərir. Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev Pesaxın yəhudilərin ən sevilən bayramlarından biri olduğunu qeyd edib. Bildirilib ki, Azərbaycanda bütün dini konfessiyalar üçün bərabər şərait yaradılıb. Azərbaycan dünyanın nadir müsəlman ölkəsidir ki, burada yəhudilərin milli və dini bayramları yerli camaatla birlikdə təntənəli şəkildə qeyd olunur.

Qırmızı qəsəbədəki İsak Xanukov adına 1 nömrəli məktəbdə təhsil alan azərbaycanlı və yəhudi uşaqların birlikdə ifası bayram tədbirinə rəng qatıb.

Builki Pesax bayramı martın 30-dan başlayaraq qeyd olunur və 8 gün davam edir. Bayram günlərində müxtəlif dini ayinlər icra olunur.

Tarixi mənbələrə görə, 3500 il əvvəl Misir fironunun zülmündən xilas olan yəhudilər 8 gün tanrıya dua ediblər. Sonralar yəhudilər baharın gəlişi ilə eyni vaxtda azadlığın əldə olunmasını bayram etməyə başlayıblar. Pesax bayramı aprelin 7-dək davam edəcək.

# Beynəlxalq uşaq kitabı günü münasibətilə...



Qazax rayon E.Hüseynov adına Mərkəzi kitabxanasının Uşaq şöbəsi 2 aprel - Beynəlxalq uşaq kitabı günü ilə əlaqədar nağıl otağında "Uşaqları kitabla böyüdək" adlı nağıl saatı keçirib.

Şöbənin müdiri Firəngiz Abdıyeva gün haqqında məlumat verib. Bildirib ki, bu günü qeyd etməkdə məqsəd kitaba sevgi aşılamaq və diqqəti uşaq kitabının nəşrinə yönəltməkdir. Kitabxanaçı Rahidə Kazımova uşaqlara müxtəlif mövzularda nağıllar oxuyub. Sonda uşaqlar vətən, ana, müəllim, kitab haqqında şeirlər söyləyiblər.

* * *

Beynəlxalq uşaq kitabı günü münasibətilə Qax rayon MKS-nin Mərkəzi kitabxanasının Uşaq şöbəsi balaca oxucularla görüşlər keçirib. Şöbənin əməkdaşları şəhərdə fəaliyyət göstərən uşaq bağçalarında "Nağıl saatı", "Ucadan oxu" təşkil ediblər. Uşaq şöbəsinin fondunda 12 min nüsxədən çox kitab var.

# Aprel döyüşlərinin ildönümü ilə əlaqədar tədbirlər



Sumqayıt Regional Mədəniyyət və Turizm İdarəsinin tabe müəssisələrində Aprel döyüşlərinin (2016) ikinci ildönümü ilə əlaqədar tədbirlər keçirilib.

Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi kitabxanasının Uşaq şöbəsi və Yazıçılar Birliyi Sumqayıt bölməsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə S.Sarvan adına Uşaq poeziya klubu üzvlərinin ifasında şəhidlərə həsr olunmuş şeirlər dinlənilib.

Mərkəzi uşaq kitabxanasında 1 saylı orta məktəbin kollektivinin iştirakı ilə xatirə günü keçirilib. Şəhidlər Əbdülməcid Axundovun anası Ceyran Axundova və Murad Məmmədovun atası Vaqif Məmmədov çıxış edərək övladları ilə bağlı xatirələrini bölüşüblər.

Qubadlı rayon Tarix-diyarşünaslıq muzeyinin işçiləri tərəfindən rayonun Saray kənd tam orta məktəbində keçirilən tədbirdə Aprel döyüşləri haqqında şagirdlərə geniş məlumat verilib. Nizami Gəncəvi adına kitabxana-klubda "Vətənin mərd oğulları" adlı tədbir, M.Ə.Rəsulzadə adına kitabxana filialda isə şəhid polkovnik Vüqar Nurəddin oğlu Yusifova həsr olunmuş anım mərasimi keçirilib.



# Qan yaddaşımızın unudulmayacaq səhifəsi

## Məktəblilərlə soyqırımı tarixi mövzusunda söhbətlər aparılıb

1918-ci il azərbaycanlıların soyqırımının ildönümü ilə əlaqədar Quba Soyqırımı Memorial Kompleksinin təşəbbüsü və rayon Təhsil şöbəsinin iştirakı ilə rayonun məktəblərində tədbirlər keçirilib.

Memorial kompleksin əməkdaşları Quba şəhər 2, 3, 6, 7 nömrəli tam orta məktəbləri, Qəçrəş, I Nügədi, Zizik, Alekseyevka kənd tam orta məktəbləri, Quba "İstək" liseyi, Texniki təmayüllü liseyin müəllim və şagird kollektivləri üçün "Tarixi həqiqətlər", "31 Mart tarixin unudulmaz səhifəsidir" mövzularında maarifləndirici söhbətlər aparıblar.

Qeyd olunub ki, Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə yeksan edilib.

Tədbirlərin yekunu olaraq Memorial kompleksdə fəal məktəblilərin iştirakı ilə rəsm sərgisi və şeir müsabiqəsi təşkil olunub. Quba Soyqırımı Memorial Kompleksinin direktoru Rəxşəndə Bayramova belə tədbirlərin keçirilməsinin gənc nəslin milli şüurunun formalaşdırılmasında mühüm rolunu qeyd edib. Fərqlənən şagirdlərə kitab və bukletlər təqdim edilib.

# Xalça Muzeyində yeni çeşnilərin və tarixi Qarabağ xalçasının təqdimatı

**Aprelin 4-də Azərbaycan Xalça Muzeyində yeni hazırlanmış "Bakı xalçaları. Yeni çeşnilər" layihəsinin və "Xətayi" xalçasının təqdimatı keçirilib. Bununla bağlı təşkil olunan sərgi Mədəniyyət və Turizm Nazirliyi, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, Azərbaycan Xalça Muzeyi və Zirə Mədəniyyət Mərkəzi - Eko-Parkın təşkilatçılığı ilə reallaşıb. Tədbirdə ölkəmizdə səfərdə olan Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili də iştirak edib.**



Azərbaycan Xalça Muzeyinin direktoru Şirin Məlikova çıxış edərək bildirib ki, layihə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın dəstəyi ilə həyata keçirilib. Ölkəmizdə xalçaçılığın tarixindən danışan muzeyin direktoru hazırda bu sənətin daha da inkişaf etdirilməsindən söz açıb. Dövlət tərəfindən xalçaçılığa böyük diqqətin olduğunu bildirən Ş.Məlikova söyləyib ki, Azərbaycan xalçaları dünyanın hər yerində tanınır. O, muzeyin ekspozisiyasına yeni tarixi xalçaların təqdim edilməsində göstərilən dəstəyə görə birinci xanım Mehriban Əliyevaya təşəkkürünü bildirib.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ölkəmizin mədəni həyatında əldə olunan uğurlardan danışıb, belə layihələrin təqdimatının əhəmiyyətini qeyd edib: "Bu gün çox əlamətdar hadisənin şahidiyik. Azərbaycan xalçaçılıq sənətinin tarixi qədim olduğu kimi çeşidləri də fərqlidir. Zirə Mədəniyyət Mərkəzi - Eko-Parkın həyata keçirdiyi "Bakı xalçaları. Yeni çeşnilər" layihəsi çərçivəsində Bakı qrupuna aid yeni 29 xalça çeşnisi tərtib olunub. Bunların əsasında xalçalar toxunub, "Bakı xalçaları. Yeni çeşnilər" adlı kitab hazırlanıb. Bildiyiniz kimi, Zirə Mədəniyyət Mərkəzi - Eko-Park 2015-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılıb. Buraya Zirə Xalça Muzeyi, Xalça Tədrisi Mərkəzi və xalçaçılıq müəssisəsi də daxildir. Azərbaycan xalçaları bizim tariximizdə böyük rol oynayır. 2016-cı ildən fəaliyyət göstərən Zirə xalçaçılıq müəssisəsində Azərbaycanın Bakı qrupu klassik xalçaçılıq ənənələrinə uyğun klassik və müasir çeşnili xalçaların toxunması uğurla həyata keçirilir".



Nazir vurğulayıb ki, xalça bizim yaşayış tərzimizin bir parçasıdır. Bu gün Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə mədəniyyətimizin bütün sahələrində çox uğurlu layihələrin şahidiyik: "Heydər Əliyev Fondunun dəstəyi ilə Qarabağın XVII əsrə aid "Xətayi" xalçasının ölkəmizə qaytarılması və muzeyə verilməsi buna bariz nümunədir. Fond öz imkanları hesabına dünyanın bir sıra muzeylərindən bizə məxsus olan xalçaları ölkəmizə qaytarmaq üçün işlər görür və buna nail olur. Mədəniyyətimiz bu gün ölkə hüdudlarını aşaraq müxtəlif ölkələrdə təqdim edilir. Ölkəmizə çoxsaylı turistlər gəlir. Turistlərin tanış olduğu məkanlardan biri də Xalça Muzeyidir. Fürsətdən istifadə edib bu layihənin təqdim olunmasında əməyi olan hər kəsə təşəkkürümü bildirirəm".

Sonra Heydər Əliyev Fondunun dəstəyi ilə xaricdən ölkəmizə gətirilən XVII əsrə aid Qarabağın tanınmış "Xətayi" xalçası Azərbaycan Xalça Muzeyinə təqdim olunub. "Xətayi" xalçası Azərbaycan xalçaları arasında özünəməxsus yer tutur. Çünki bu xalçalar vaxtilə Qarabağda toxunar və İpək Yolu vasitəsilə xarici ölkələrə daşınardı. Təəssüf ki, hazırda ölkəmizdə belə xalçalardan qalmayıb. Bu baxımdan "Xətayi" xalçasının Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycana qaytarılması mədəniyyətimiz üçün böyük töhfədir. Qeyd edək ki, bu xalça Heydər Əliyev Fondu tərəfindən muzeyə verilən ikinci hədiyyədir. 2017-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizə gətirilən XVIII əsrə aid qədim Şirvan tikmə nümunəsi də Xalça Muzeyinə hədiyyə edilmişdi.

Sərgi çərçivəsində "Bakı xalçaları. Yeni çeşnilər" adlı kitabın təqdimatı da olub. Kitabda Bakı kəndlərində tətbiqi sənətin tarixi, klassik sənətkarlıq ənənələri, yeni yaradılan çeşnilər, Bakı xalçaçılıq qrupu haqqında məlumatlar əksini tapıb. Kitab ölkənin görkəmli xalça mütəxəssisləri və sənətşünaslarının iştirakı ilə tərtib edilib. Burada Azərbaycanın xalçaçılıq sənəti, klassik Bakı xalçaları, xüsusilə yeni yaradılmış xalça çeşniləri haqqında geniş məlumat verilir.

Sərgi aprelin 15-dək davam edəcək.

# Azərbaycan bəstəkarlarının musiqisi uşaqların ifasında

## Cəlal Abbasovun "Şən bahar" operası və "Düzgülər" kantatasının konsert-tamaşası nümayiş olundu





**Aprelin 4-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Klassik musiqi həvəskarları klubunun 10 illiyinə həsr edilən konsert-tamaşa təqdim edildi.**

Tədbirdə çıxış edən muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova Azərbaycan Bəstəkarlar İttifaqı ilə sıx əməkdaşlıq etdiklərini bildirdi, birgə layihələrin əhəmiyyətindən danışdı. Qeyd etdi ki, muzey və yaradıcı təşkilatın həyata keçirdiyi "Azərbaycan bəstəkarlarının musiqisi gənc ifaçıların təqdimatında" layihəsi də bu əməkdaşlığın nümunəsidir.

Diqqətə çatdırıldı ki, muzeyin Klassik musiqi həvəskarları klubunun bugünkü yubiley tədbirində Əməkdar incəsənət xadimi, bəstəkar Cəlal Abbasovun "Şən bahar" uşaq operası və "Düzgülər" kantatası təqdim ediləcək. Konsert-tamaşa sözügedən birgə layihə çərçivəsində Bakı şəhəri Tofiq Quliyev adına 12 nömrəli onbirillik Musiqi məktəbi şagirdlərinin iştirakı ilə hazırlanıb.

Sonra konsert-tamaşa nümayiş olundu. Əlvan rəngli milli geyimlər, milli bayram atributları, şən zarafatlar, gənc ifaçıların milli mədəniyyət və ənənələrimizin zənginliyindən doğan əhval-ruhiyyəsi tamaşaya xüsusi gözəllik gətirərək izləyicilərə xoş ovqat bəxş etdi.

Konsert-tamaşanın quruluşçu rejissoru Əməkdar müəllim Gülnarə Səfərova, bədii rəhbər və xormeysteri Leyla Zalıyeva, konsertmeysteri Arzu Bayramova, səhnə tərtibatçısı Nigar Əliyevadır.

**Savalan Fərəcov**

# Yeniyetmə pianoçu Almaniyada beynəlxalq müsabiqədə birinci olub



Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət Gimnaziyasının VII sinif şagirdi, Xalq artisti Fidan Hacıyevanın Vokal musiqi məktəbində dərslər alan Ayla Kəlbiyeva bu günlərdə Almaniyanın Baden-Vürtemberq şəhərində pianoçuların "Musical Fireworks" beynəlxalq müsabiqəsində birinci yerə layiq görülüb.

Türkiyə, ABŞ, Rusiya, Ukrayna, Belarus və digər ölkələrdən ifaçıların qatıldığı müsabiqə bir neçə yaş kateqoriyasında keçirilib. A.Kəlbiyeva müsabiqədə Q.Qarayevin "Laylay" əsərini, F.Mendelsonun "Sözsüz mahnı", Y.Haydnın "Sonata"sını ifa edib.

"Aylanın Almaniyadakı uğurundan qürur duyuruq. O, gələcəkdə həm solo, həm də konsertmeyster kimi çıxış edə bilər", - deyə Xalq artisti Fidan Hacıyeva bildirib.

Professor Tamara Poddubnaya Aylanı Nyu-Yorkda "Long Island Conservatory of Music"ə dəvət edib. Ona konservatoriyaya imtahansız qəbul olunmaq və ödənişsiz təhsil almaq təklif edilib. Almaniyada olarkən Ayla həm də Bolqarıstana, İtaliyaya və Türkiyəyə ustad dərsləri almağa dəvət olunub.

**Bakıda 17-ci dəfə təşkil olunan Azərbaycan Beynəlxalq "Turizm və səyahətlər" sərgisi ("AİTF 2018") turizm biznesi, yerli və regional turizm təşkilatları, dövlət strukturları, eləcə də media nümayəndələrini yenidən bir araya toplayaraq regionun həm daxili, həm də xarici turizm dinamikasını təqdim edir. Xəzəryanı regionun turizm sənayesinin əsas sərgisi mühüm görüşlərin keçirilməsi, tərəfdaşlıq müqavilələrinin imzalanması, habelə yeni proqram və turizm marşrutlarının elan edilməsi üçün mühüm platformadır.**

# 20 ölkədən 277 şirkət, 90-dan artıq turizm istiqaməti

## "AİTF 2018" turizm peşəkarlarını və səyahət həvəskarlarını bir araya gətirib






Bu fikirləri aprelin 4-də "AİTF 2018"ə həsr edilmiş mətbuat konfransında sərginin təşkilatçısı - "İTE Group" şirkətinin regional direktoru Edvard Stroon dedi. O bildirdi ki, "Bütün dünya - bir sərgi" şüarı altında keçirilən "AİTF" sərgisində bu il 20 ölkəni təmsil edən 277 şirkət iştirak edir. Ziyarətçilər 90-dan artıq xarici turizm istiqaməti, eləcə də ölkə daxilində istirahət imkanları ilə tanış ola biləcəklər. Hava yolları və hotel şəbəkələri, eləcə də turizm sahəsi üzrə digər xidmət növləri təqdim ediləcək. Sərginin builki tərəfdaş ölkəsi Bolqarıstandır.

E.Stroon qeyd etdi ki, sərgidə tibbi və sağlamlıq turizmi sektoru geniş təqdim olunacaq. Bu il tibbi turizm seqmentində Çexiya, Rusiya, Sloveniya, Türkiyə, Ukrayna və digər ölkələri təmsil edən 40-dan çox tibb mərkəzi, klinika, sağlamlıq ocağı və sanatoriyalar iştirak edir.

Turizmin ölkə iqtisadiyyatının prioritet sahələrindən biri olduğunu söyləyən Mədəniyyət və Turizm Nazirliyi Turizm şöbəsinin müdiri Aydın İsmiyev qeyd etdi ki, AİTF sərgisi hər il Azərbaycanda bu sahənin imkanlarını nümayiş etdirməklə bərabər, ölkənin daxili turizm sektorunun inkişafına öz töhfəsini verir. Eyni zamanda sərgi Azərbaycanın turizm potensialını əyani şəkildə xarici qonaqlara nümayiş etdirir.

Sərginin meneceri Cəmilə Quliyeva bildirdi ki, iştirakçılar arasında hər il yeni-yeni həm yerli, həm də xarici ölkələri təmsil edən debütant şirkətlər də yer alır. Onun sözlərinə görə, bu il belə şirkətlər iştirakçıların 31 faizini təşkil edir.

Qeyd olundu ki, AİTF sərgisi ölkəmizdə daxili turizmin inkişafını fəal şəkildə əks etdirir. Ənənəvi olaraq bu il də ölkənin turizm potensialı regionlar tərəfindən nümayiş olunacaq, müxtəlif turoperatorlar, eləcə də "Absheron Hotels Group", "Gilan Hospitality" və digər hotellər şəbəkəsi öz xidmətlərini təqdim edəcəklər. Sərgi çərçivəsində iştirakçılar və yerli turoperatorlar arasında işgüzar əlaqələrin qurulması və danışıqlar aparmaq üçün geniş imkanlar yaradacaq vorkşop keçiriləcək.

Tədbirlər üzrə menecer Nəzrin Şamxalova 17-ci AİTF ilə bərabər, Bakı Ekspo Mərkəzində keçiriləcək 12-ci Qafqaz Beynəlxalq "Mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar" ("Horex Caucasus 2018") sərgisi haqqında da məlumat verdi. Bildirdi ki, "Horex Caucasus" regionda hotel və restoran sektorunun yeganə ixtisaslaşdırılmış sərgisidir.

**Fariz Hüseynov**




# Qara dənizin turistik və mədəniyyət rəngləri Bakı sərgisində

**AİTF sərgisinin fəal iştirakçılarından olan Türkiyə bu dəfə tədbirə 16 təşkilatı və xeyli sayda sənətçisi ilə qatılıb. Sərgidə bu il "Türk dünyasının mədəniyyət paytaxtı" olan Kastamonu şəhəri və Qara dəniz şəhərləri önə çıxarılıb.**

Türkiyənin Azərbaycandakı səfirliyinin mədəniyyət və tanıtım müşavirliyindən verilən məlumata görə, Türkiyədən bu sərgidə iştirak etmək üçün 50-dən çox şirkət və təşkilat müraciət etmişdi. Ekspozisiya sahəsi nəzərə alınaraq 16 təşkilata yer verilib. Türkiyə Mədəniyyət və Turizm Nazirliyi builki sərgiyə yeni bir dizayn quruluşlu milli stendi, rəqəmsal yeniliklər, eləcə də sənət fəaliyyətləri ilə qatılıb.

TÜRKSOY tərəfindən 2018-ci il "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunan Kastamonu şəhərinin, təbiət turizmi və Qara dəniz mədəniyyətinin təbliğinə xüsusi diqqət ayrılıb.

Bundan əlavə, Osmanlı və müasir türk üslubunda xəttatlıq və ebru sənəti ustası Bekir Uslu, Türkiyənin məşhur təsbeh ustası Hüseyin Çelik, miniatürçü Müjgan İşler, Bursa ipək toxuması ustası və Uludağ Universitetinin müəllimi Sevgi Yüksel Uzunöz kimi usta və sənətçilər tədbirə xüsusi rəng qatacaqlar. Sərgidə Qara dəniz bölgəsinin tanınmış Trabzon Horon kollektivi və kazaziyyə (əlvan məftillarla əl işi sənəti), eləcə də kamança ustaları, xalq oyunları sənətçiləri iştirak edirlər.

# "Vişeqrad dördlüyü" ölkələrinin turizm potensialının təqdimatı

**Macarıstanın Vişeqrad qrupuna sədrliyi çərçivəsində Bakıda bu ölkələrin turizm potensialına dair tədbir keçirilib.**




Tədbirdə çıxış edən Macarıstanın Azərbaycandakı səfiri Viktor Szederkenyi Vişeqrad qrupunun güclü və uğurlu şəkildə fəaliyyətini davam etdirdiyini deyib.

O, ölkəsi ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf etdiyini deyərək birbaşa hava reysinin bərpasının iki ölkə arasında turizm sahəsində də əlaqələrin inkişafına təkan verəcəyini əlavə edib.

Daha sonra Macarıstan, Çexiya, Slovakiya və Polşanın turizm potensialına dair videotəqdimat olub.

"Vişeqrad dördlüyü" 1991-ci il fevralın 15-də Macarıstanın Vişeqrad şəhərində sözügedən ölkələrin regional işbirliyi və Avropa İttifaqına üzvlük yolunda addımlarını əlaqələndirmək məqsədilə təsis edilib.

# AZAL Lənkərandan Moskvaya birbaşa reys açır

İyunun 8-dən etibarən "Azərbaycan Hava Yolları"nın Moskva-Lənkəran-Moskva marşrutu üzrə birbaşa reysləri açılacaq.

"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən bildirilib ki, reyslər "Airbus A320" təyyarələri ilə hər həftə cümə günləri Lənkəran aeroportundan "Vnukovo" aeroportuna və geri yerinə yetiriləcək.

Qeyd edək ki, yay cədvəli çərçivəsində Moskvaya Azərbaycanın daha iki bölgəsindən - Gəncə (aprelin 13-dən) və Qəbələdən (iyunun 4-dən) AZAL-ın reysləri həyata keçiriləcək. Bu istiqamətlər üzrə reyslər Rusiyanın turizm şirkətləri ilə birgə tərəfdaşlıq proqramı çərçivəsində reallaşdırılır.

Bundan başqa, ilk milli loukoster "Buta Airways" Gəncədən Moskvaya birbaşa reyslər həyata keçirir.

# Ukrayna da elektron vizanın tətbiqinə başlayır

Ukraynada aprel ayından etibarən xarici vətəndaşlar üçün elektron vizanın tətbiqinə başlanılıb. Bu barədə Ukrayna Xarici İşlər Nazirliyi məlumat yayıb.

Artıq xarici vətəndaşlar Ukraynaya işgüzar və ya turistik səfər edərkən elektron viza ala biləcəklər. Elektron vizanın qeydiyyatı üçün anket, müvafiq sənədlər onlayn doldurulmalı, bank kartları ilə rüsum ödənilməlidir. Elektron vizanı 46 ölkənin vətəndaşları ala bilər.

# Musiqi təhsilinin optimallaşmasına xidmət edən layihə

## Uşaq musiqi və incəsənət məktəblərinin tədris portalı istifadəyə verilib

**Çox oxumaq, araşdırma aparmaq, biliyi paylaşmaq, müzakirə etmək peşəkar və həyat haqqında məlumatlı olmaq deməkdir. Bu bilgilərin əldə olunmasında ənənəvi üsullarla yanaşı, hazırda daha çox elektron informasiya vasitələrindən istifadə edilir. Ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi bütün sahələrdə uğurla tətbiq olunur. Xüsusilə təhsil sahəsində həyata keçirilən innovativ yeniliklər tədris prosesinin optimallaşdırılmasına, effektivliyin artırılmasına xidmət edir.**

Mədəniyyət və Turizm Nazirliyinin yeni istifadəyə verilən Uşaq musiqi və incəsənət məktəblərinin tədris portalı (<http://music.mctgov.az>) bu baxımdan böyük əhəmiyyətə malikdir. Portalın yaradılmasında məqsəd bu sahədə daha dinamik və günün tələblərinə uyğun fəaliyyətin qurulmasıdır. Sayt vasitəsilə musiqi və incəsənət məktəblərində çalışan insanlar musiqi sahəsində baş verən tədris yenilikləri ilə tanış olmaq imkanı qazanacaqlar.

Musiqi məktəblərində tədrisin keyfiyyətli, günün tələbləri səviyyəsində qurulması, ən yaxşı pedaqoji nailiyyətlərin yayılması, elmi-metodik yeniliklərin öyrənilməsi və təbliğ olunmasını təmin etmək dövrün vacib çağırışıdır. Zəngin elektron resurs bu çağırışlara adekvat cavab verir.

### Sənə yaxın məktəbi və sevdiyin ixtisası seç

Portalın "İxtisaslar" adlı ilk bölməsində ölkəmizdə fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərində tədris olunan ixtisaslar haqqında geniş informasiya verilir.




Burada milli və Avropa musiqi alətləri (fortepiano, gitara, qarmon, saz, balaban, tar, kamança, qanun, violin, saksofon, qoboy, klarnet və s.) ilə yanaşı, xor dirijorluğu, nəzəriyyə, bəstəkarlıq, caz-improvizə, xanəndəlik, estrada oxuma, vokal və digər musiqi ixtisasları barədə bilgi almaq mümkündür. Bölümdə həmçinin bu ixtisasların tədris olunduğu paytaxt və bölgələr üzrə təhsil müəssisələri haqqında məlumatlar yer alıb.

Saytda 200-dən çox bədii təhsil müəssisəsinin yaranma tarixi, iş rejimi, tədris olunan ixtisaslar, ünvan (o cümlədən elektron), əlaqə nömrələri və s. öz əksini tapıb. Hər bir valideyn övladını yaşadığı əraziyə yaxın məktəbdə oxutmaq üçün həmin təhsil ocağı haqqında bu portal vasitəsilə ətraflı məlumat əldə etmək imkanına malikdir.

"Tədris vəsaitləri" bölməsində məktəblərin il ərzində nəzərdə tutulan tədris proqramları, gündəlik iş planları və metodiki vəsaitlər yerləşdirilib. Rəssamlıq, solfecio, Azərbaycan musiqi ədəbiyyatı (11 illik təhsil üzrə), Azərbaycan xalq musiqisinin əsasları, harmoniya (11 illik təhsil üzrə) və digər fənlər üzrə gündəlik iş planları, çoxsaylı metodiki vəsaitlərin təqdim olunduğu portal bu sahədə çalışan insanların vahid mənbədən çevik və rahat şəkildə yararlanmasına şərait yaradır. Mətnlərin yerləşdirilməsi təkcə mütəxəssislərin deyil, bu sahə ilə maraqlanan hər kəs üçün faydalıdır. Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəz tərəfindən mütəxəssislərin müəllifliyi ilə nəşr olunan mətnlərin tam olaraq saytda yerləşdirilməsi uşaq və incəsənət məktəblərində tədris sisteminin asanlaşdırılmasına xidmət edən əhəmiyyətli addım kimi dəyərləndirilmәlidir. İstənilən ixtisas üzrə dərs deyən müəllim öz bilik və bacarığını rahat şəkildə artıra bilər.

### Şən notlar...

Saytın "Notlar" bölməsi də maraqlı informasiyalarla zəngindir. Musiqi və incəsənət məktəblərində tədris olunan bütün ixtisasları əhatə edən not bazası müəllim və şagirdlərin bu sahədə işlərini daha da asanlaşdıracaq. Portalda müvafiq ixtisaslar (tar, arfa, qoboy, kontrabas və s.) üzrə tədris olunan əsərlərin notlarını əldə etmək mümkündür. Polifonik, etüd, aşıq havaları, iri formalı əsərlər, konsert, romans və digər janrları əhatə edən, ümumilikdə 80-dən artıq əsərin notu hər kəsin istifadəsindədir.

### Azərbaycan və dünya bəstəkarlarını yaxından tanıyın

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələri haqqında saytın "Bəstəkarlar" bölməsində məlumat almaq olar. Burada professional musiqimizin banisi Üzeyir Hacıbəyli, görkəmli bəstəkarlar Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Səid Rüstəmov, Cahangir Cahangirov, Firəngiz Əlizadə və digərlərinin həyat və yaradıcılığı haqqında müfəssəl məlumat verilir. Eyni zamanda dünyanın bir sıra məşhur bəstəkarları (A.Vivaldi, C.Rossini, C.Verdi, D.Şostakoviç, F.List, F.Şubert, L.V.Bethoven və s.) barədə də bilgilər yer alıb.

Bölmədə Azərbaycan və dünya bəstəkarlarının məşhur əsərlərinin annotasiyası və notlarının verilməsi, habelə bir sıra musiqi əsərlərinin audiofayllarının da yerləşdirilməsi saytın əhəmiyyətini artıran vacib məqamlardır.

"Alətlər" bölməsində isə musiqi alətlərinin yarandığı yer və tipi haqqında məlumat verilir. Burada simli, nəfəsli, zərb və klavişli alətlərin hər birinin tarixi, yarandığı ölkə və özəllikləri barədə bilgi almaq mümkündür. Saytda həmçinin bu alətlərin səslərini də dinləmək imkanı var.

### Ustad dərslərinə həmişə ehtiyac var

Portalın "Ustad dərsləri" bölməsi də istifadəçilər üçün maraq doğuracaq. Çünki vaxtilə musiqi və incəsənət məktəblərində təşkil olunmuş ustad dərslərinin audioyazılarının burada yer alması müəllim və şagirdlər üçün çox əhəmiyyətlidir. Audioyazı vasitəsilə istənilən vaxt bu dərsləri sinif otaqlarında yenidən təşkil etmək imkanı yaranır. Müxtəlif ixtisaslar üzrə tanınmış sənət ustalarının keçdiyi ustad dərsləri gənc nəslin məşğul olduğu sahəyə marağının artırılmasına, sənətini sevməsinə və onların yaradıcılıq potensiallarının artırılmasına xidmət edir.

Saytın sonuncu - "Faydalı linklər" bölməsində isə sizi maraqlandıran sahələr üzrə zəngin məlumatlar əldə edə bilərsiniz. "Üzeyir Hacıbəyli. Azərbaycan xalq musiqisinin əsasları", "Üzeyir Hacıbəyli ensiklopediyası", "Muğam ensiklopediyası", "Əfrasiyab Bədəlbəyli. İzahlı monoqrafik musiqi lüğəti", eləcə də not kitabxanası, not arxivi, fortepiano üçün notlar və s. bilgilərinizi daha da zənginləşdirəcək.

Uşaq musiqi və incəsənət məktəblərinin tədris portalı ilə tanışlıqdan sonra ölkəmizdə digər sahələrlə yanaşı, musiqi təhsilinin də yüksək dövlət qayğısı ilə əhatə olunduğu həqiqəti bir daha təsdiqini tapır. Köklü ənənələrə malik Azərbaycan musiqi mədəniyyətinin gələcək nəsillərə sistemli şəkildə çatdırılmasının göstəricisi olan sayt bu sahənin mütəxəssisləri və şagirdlər üçün qiymətli mənbə rolunu oynayacaq.

**Lalə Azəri**

# İki şair qardaşın bir "Söz"ü

**Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə reallaşan "Söz" layihəsinin martın 30-da baş tutan növbəti tədbirinin əsas qəhrəmanları əvvəllər də bu layihədə çıxış etmiş iki gənc şair qardaş - Mehman və Firdovsi Rəsulovlar oldular.**






İçərişəhərdəki «Art Tower» qalereyasında keçən poeziya axşamının qonaqları arasında Xalq şairi Sabir Rüstəmxanlı, Xalq artisti, rejissor Ramiz Həsənoğlu, əməkdar artistlər Mələk Abbaszadə və Yaqut Paşazadə, A.Şaiq adına Dövlət Kukla Teatrının baş rejissoru Qurban Məsimov və digər tanınmış sənət adamları var idi.

"Söz" layihəsinin rəhbəri, şairə Nigar Həsənzadə təqdimat çıxışında söylədi ki, tədbirə dəvət olunmuş qardaşların istedadına inanır və onlara uğurlu yaradıcılıq yolu keçməyi arzu edir.

Sonra qardaşlar öz şeirlərini oxudular. Mehman ilk dəfə ötən ilin mayında "Söz" layihəsində debüt edib, sonra da "Xalq şairi" televiziya layihəsinə qoşularaq, finaladək irəliləyib. Onun filoloji təhsil almış qardaşı Firdovsi də həmin televiziya yarışmasının finalçılarından olub. Tədbir qardaşların şeirlərinin həm orijinalda, həm də layihənin digər iştirakçısı, gənc şairə İren Tasalovanın tərcüməsində rusca səslənməsi ilə də yadda qaldı.

Layihənin digər sürprizi isə müəllif mahnısı janrını seçmiş 29 yaşlı Elçin Mövsümovun çıxışı oldu.

Tədbirin qonağı şair Sabir Rüstəmxanlı çıxışında "Söz" layihəsinin uğurundan danışdı və gənc söz adamlarını dəstəklədiyi üçün Nigar Həsənzadəyə təşəkkür etdi: "Nigar xanım qısa müddətdə nəinki istedadlı gəncləri öz ətrafına toplaya bilib, həm də ictimaiyyətin diqqətinin onlara yönəlməsinə, gənclər arasında ədəbiyyata marağın dirçəldilməsinə, üstəlik, mənalı ədəbi gecələr ənənəsinin paytaxtımıza qayıtmasına nail olub".

Tədbirin sonunda Nigar Həsənzadə gecənin qonaqlarına, layihənin dostlarına təşəkkür etdi, "Söz" layihəsini hər zaman dəstəklədiyinə görə Mədəniyyət və Turizm Nazirliyinə, yaradılmış şəraitə görə "İçərişəhər" qoruğuna və "Art Tower"in rəhbərliyinə minnətdarlığını bildirdi.

**G.Mirməmməd**

# “Mart musiqi günləri”

## Bolqarıstanda beynəlxalq festivalda Qara Qarayevin yaradıcılığından bəhs edən fotosərgi keçirilib

**Bolqarıstanın Ruse şəhərində Azərbaycanın bu ölkədəki səfirliyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi və Ruse İncəsənət Qalereyasının birgə təşkilatçılığı ilə “Mart musiqi günləri” beynəlxalq festivalı çərçivəsində dahi bəstəkar Qara Qarayevin həyat və yaradıcılığından bəhs edən fotosərgi keçirilib.**





Bəstəkarın 100 illik yubileyi münasibətilə təşkil edilən sərginin açılışında əvvəlcə Ruse şəhərinin meri Plamen Stoilovun təbrik məktubu oxunub.

Gecənin açılışında çıxış edən Azərbaycanın Bolqarıstandakı səfiri Nərgiz Qurbanova bu il Azərbaycanda bir sıra yubileylərin, o cümlədən müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd edildiyini nəzərə çatdırıb. Diplomat bu ilin, həmçinin Azərbaycan milli operasının 110 illik yubileyi ilə əlamətdar olduğunu, 1908-ci ildə Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operası ilə müsəlman Şərqində opera sənətinin əsasının qoyulduğunu vurğulayıb.

Azərbaycan musiqiçilərinin dünya musiqisini özünəməxsus nümunələrlə zənginləşdirdiyini qeyd edən səfir 100 illik yubileyini qeyd etdiyimiz görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin yaradıcılığından bəhs edib. Bildirib ki, yaradıcılığında Şərq və Qərbin vəhdəti təcəssümünü tapan musiqiçi 1961-ci ildə Sovet İttifaqı tərəfindən I Beynəlxalq Los-Anceles Musiqi Festivalına göndərilən iki bəstəkardan biri olub, “İldırımlı yollarla” baleti festival çərçivəsində ifa olunub.

Tədbirdə daha sonra Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Alla Bayramova çıxış edərək Qara Qarayevin zəngin yaradıcılığı barədə sərgi iştirakçılarına ətraflı məlumat verib, onun “Yeddi gözəl” və “İldırımlı yollarla” baletləri, “Vətən” operası, “Leyli və Məcnun” simfonik poeması və digər əsərlərinin təkcə Azərbaycan musiqisinin deyil, həmçinin dünya musiqisini zənginləşdirdiyini vurğulayıb. Direktor bu sərginin bolqar musiqisevərlərə görkəmli bəstəkarı, onun vasitəsilə Azərbaycan musiqi mədəniyyətini yaxından tanımağa imkan yaradacağına inamını ifadə edib.

Ruse şəhəri merinin humanitar fəaliyyət üzrə müavini İvan Qriqorov bu cür tədbirlərin keçirilməsinin ölkələrimiz arasında əməkdaşlığın, o cümlədən mədəni sahədə əlaqələrin inkişafı baxımından əhəmiyyətini qeyd edib.

Sərgi çərçivəsində, həmçinin bəstəkar haqqında sənədli film nümayiş etdirilib, əsərlərindən bəziləri səsləndirilib.

Qeyd edək ki, “Mart musiqi günləri” beynəlxalq festivalı Bolqarıstanın ən nüfuzlu festivallarından hesab olunur. 1961-ci ildə əsası qoyulan festival Ruse şəhərini Avropanın tanınan musiqi paytaxtına çevirir.

## Londonda Ədilə Hüseynzadənin romansları səslənəcək

Xalq artisti Fidan Hacıyeva tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi Ədilə Hüseynzadənin (1916-2005) romanslarını silsilə konsert proqramları ilə təqdim edəcək.

Vokalçı bildirib ki, birinci konsert mayın 6-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında təşkil ediləcək. İkinci konsert mayın 16-da Londonda “Kings place” zalında olacaq.

Ədilə Hüseynzadə Üzeyir Hacıbəylinin Ağabacı Rzayeva, Şəfiqə Axundova kimi sevimli tələbələrindən idi. Azərbaycan Dövlət Konservatoriyasını bəstəkarlıq ixtisası üzrə bitirmiş ilk azərbaycanlı qadındır. O, uzun illər Bülbül adına Orta ixtisas musiqi məktəbində dərs deyib, gənc istedadların üzə çıxarılmasında əlindən gələni əsirgəməyib.

# Bəstəkar ömrünün mərhələləri

**Görkəmli bəstəkar Cövdət Hacıyevin yetirməsi, Əməkdar incəsənət xadimi, professor Vasif Allahverdiyevin yaradıcılığı daima musiqi ictimaiyyətinin marağına səbəb olur, geniş dinləyici kütləsinin rəğbətini qazanır. Onun əsərləri özünəməxsus musiqi dili, peşəkar üslubu ilə fərqlənir. Azərbaycan xalq musiqisini dərindən bilən, daima yeni ifadə üsulları axtaran bəstəkarın yaradıcılığı çoxşaxəlidir. O, musiqinin bir çox janrlarına (simfonik, kamera musiqisi, vokal və s.) müraciət etmişdir. Vasif Allahverdiyev yazdığı bütün əsərlərində milli ənənələrlə müasir ifadə vasitələrini üzvi surətdə birləşdirmişdir. Yaradıcılığında milli qaynaqlara bağlılıq özünü parlaq şəkildə büruzə verir.**



Bəstəkarın yazdığı əsərlər tez-tez paytaxtın musiqi salonlarında, beynəlxalq səviyyəli tədbirlərdə, Azərbaycan Bəstəkarlar İttifaqının plenumlarında eşidilir. Martın 30-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Vasif Allahverdiyevin yaradıcılıq gecəsi keçirildi.

Filarmoniyanın və “Mədəniyyət” kanalının təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə reallaşan tədbirdə Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı çıxış edərək Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış nümayəndəsi olan Vasif Allahverdiyevin zəngin yaradıcılıq fəaliyyətindən danışdı. Bildirdi ki, Vasif Allahverdiyev 1992-ci ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (Bakı Musiqi Akademiyası) bəstəkarlıq ixtisası üzrə, 1994-cü ildə isə tar ixtisası üzrə bitirib. Bəstəkar simfonik orkestr üçün “Atatürk” simfoniyası, “Heydər Əliyev - ömür yolu” simfonik poeması, səs və kamera orkestri üçün “Sənsizlik” elegiyası, xalq çalğı alətləri orkestri üçün “Cəngi sədası”, solo tar üçün “Qarabağ balladası”, ağac nəfəsli kvartet və nağara üçün “Muğamsayağı”, milli musiqi alətləri və kamera orkestri üçün işləmələrin müəllifidir. Hazırda Azərbaycan Milli Konservatoriyasının professoru olan Vasif Allahverdiyev gənc musiqiçilərin yetişməsində yaxından iştirak edir.

Tədbir bəstəkarın əsərlərindən ibarət musiqi nömrələrinin səsləndirilməsi ilə davam etdi. Xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiətilə səslənən əsərlər tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Səslənən ilk əsər “Atatürk” simfoniyası oldu. 1992-ci ildə yazılmış 3 hissəli simfoniya türk xalqının böyük oğlunun şərəfli ömür yolunun parlaq musiqi təcəssümüdür.

Vasif Allahverdiyev yaradıcılığında vokal musiqiyə geniş yer verir. Onun “Sənsizlik” elegiyası” (səs və kamera orkestri üçün), “Bəlkə görüşdük”, “Azərbaycan”, “Hara gedirsən”, “O yollar”, “Bakı” və s. vokal əsərlərini qeyd edə bilərik. Bəstəkar bir çox xalq mahnılarını səs və kamera orkestri üçün işləmişdir. Budəfəki konsertdə onun sözləri Maya Heydərqızına aid, ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunan “Sənsizlik” elegiyası tanınmış metso-soprano Ayan Qurbanovanın ifasında böyük coşquyla qarşılandı.

Ardınca Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında iki əsər səsləndirildi. Onlardan biri müəllifin 2005-ci ildə yazdığı I hissəli “Simli orkestr üçün musiqi”, ikincisi “Sevgi valsı” idi. Lirik sevgi hislərini əks etdirən bu əsər həzin və yaddaqalan melodiyası ilə diqqəti cəlb etdi.

Konsertdə səslənən növbəti böyük həcmli əsər “Ömür yolu” simfonik poeması oldu. Ümummilli lider Heydər Əliyevə həsr olunan əsərlər sırasında Vasif Allahverdiyevin 1996-cı ildə yazdığı “Ömür yolu” simfonik poeması özünəməxsus yer tutur. Qeyd olunmalıdır ki, “Ömür yolu” simfonik poeması ulu öndərə həsr olunan ilk simfonik əsərdir. Simfonik poemada böyük liderin obrazı ilə yanaşı onu əhatə edən mühit, Azərbaycanın başına gələn müsibətlər və s. təsvir olunmuşdur. Bəstəkar Heydər Əliyevin ömür yolu fonunda onun şəxsi musiqi portretini yaratmışdır. Əsərin daha bir maraqlı cəhəti böyük siyasətçinin qətiyyətinin ön plana çıxarılmasıdır. Vasif Allahverdiyev nikbin, həyat eşqi ilə yaşayan, böyük yaradıcılıq potensialına malik sənətkardır. Yaradıcılığının kamillik dövrünü yaşayan bəstəkar yüksək peşəkarlıq prinsiplərinə sadiq qalaraq milli musiqi mədəniyyətimizin tərəqqisi naminə yorulmadan çalışır. Onun əsərləri ali və orta ixtisas musiqi məktəblərinin tədris repertuarına daxil edilir. Bu yazıda biz qısa da olsa, onun yaradıcılığının zənginliyini, sənət dünyasının genişliyini, milli musiqi incəsənətinin inkişafı naminə gördüyü işlərin əhəmiyyətini göstərmək istədik. Bütün bunlar istedadlı bəstəkarın ömür yolunun mərhələləridir.

**Jalə Qulamova**
***Azərbaycan Milli Konservatoriyasının elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru***



**Aprelin 3-də Beynəlxalq Muğam Mərkəzində yazıçı-publisist, Əməkdar jurnalist, Milli Məclisin deputatı Elmira Axundovanın rus dilində nəşr olunan "Anar Məmmədxanov. Kapitanın taleyi" ("Anar Mamedxanov. Sudba kapitana") kitabının təqdimat mərasimi keçirilib.**

# "Kapitanın taleyi"

## Anar Məmmədxanov haqqında kitabın təqdimatı olub





90-cı illərin məşhur "Bakılı oğlanlar" KVN ("Şən və hazırcavablar klubu") komandasının kapitanı, millət vəkili Anar Məmmədxanovun (1970-2011) vəfatının ildönümü ərəfəsində çapdan çıxan kitabın təqdimatında rəsmi şəxslər, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, səfirlər, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Anar Məmmədxanovun həyat yolu barədə videoçarx nümayiş etdirilib.

Tədbirin aparıcısı, "Bakılı oğlanlar" komandasının sabiq üzvü Murad Dadaşov Anar Məmmədxanov haqqında belə bir kitabın nəşrinin onu sevənlər üçün böyük hədiyyə olduğunu söyləyib.

Müəllif Elmira Axundova mərasimdə çıxış edərək bildirib ki, bu, Anar Məmmədxanovla bağlı nəşr edilən dördüncü kitabdır. O deyib: "Mən Anar Məmmədxanov haqqında yazılan əvvəlki kitabları oxudum, onunla bağlı araşdırma apardım və sonda bu kitabı yazıb ərsəyə gətirməyi özümdə bir ehtiyac hiss etdim. Əslində bu kitab təkcə mənim yox, bu zalda əyləşən tanınmış şəxslərin birgə məhsuludur".

Elmira Axundova kitabın ərsəyə gəlməsində ona göstərdikləri köməyə görə Anar Məmmədxanovun həyat yoldaşı İradə Məmmədxanovaya və bacısı Naidə Məmmədxanovaya təşəkkürünü bildirib.

Xalq yazıçısı Anar çıxışında bildirib ki, belə bir kitabın yazılması cəmiyyətimiz üçün töhfədir. Anar Məmmədxanov kimi yüksək təşkilatçılıq qabiliyyətinə malik, istedadlı bir insanı yaxından tanımaq gənclərimiz üçün çox faydalıdır. Elmira Axundova kitabda bununla bağlı nə lazımdırsa təqdim edib.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Anar Məmmədxanov haqqında, "Bakılı oğlanlar"ın fəaliyyəti, Moskvada qazandıqları qələbələr barədə xatirələrini bölüşüb, belə bir kitabı ərsəyə gətirdiyi üçün Elmira Axundovaya təşəkkür edib.

Anar Məmmədxanovun bacısı, professor Naidə Məmmədxanova qardaşının keçdiyi ömür yolundan söz açıb. Diqqətə çatdırıb ki, Elmira Axundova bu kitabda Anarı tanıyan və sevən insanların onunla bağlı xatirələrini toplayıb. Bu, böyük zəhmətdir. Beləliklə, çox maraqlı bir nəşr ərsəyə gəlib.

"Bakılı oğlanlar" komandasının keçmiş üzvləri Tahir İmanov, Cabir İmanov, Bəhram Bağırzadə və digərləri Anar Məmmədxanovla bağlı hazırladıqları, indiyə qədər yayımlanmamış görüntüləri təqdim edib, təəssüratlarını bölüşüblər.

---

# "Qəhrəmanlarımız qan yaddaşımızdır"

Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyi tərəfindən hazırlanıb nəşr etdirilən "Qəhrəmanlarımız qan yaddaşımızdır" kitabının təqdimatı olub.

Kitab 2016-cı ilin aprelində ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərmiş şəhidlərimizin əziz xatirəsinə həsr edilib. Mərasimdə şəhidlər Tural Dadaşovun anası Kəmalə Dadaşova, Mahir Mirzəyevin atası Sabir Mirzəyev iştirak ediblər.

Tədbirdə çıxış edənlər vurğulayıblar ki, Aprel döyüşləri xalqımızın hərb tarixinin parlaq səhifələrindən biri, Azərbaycan Ordusunun qüdrətini göstərən qəhrəmanlıq tarixidir.

---

# Elmi tədqiqatlar toplu halında nəşr edilib

**Bakı Xoreoqrafiya Akademiyasında (BXA) ilk dəfə olaraq özündə Azərbaycan və rus dillərində elmi tədqiqat işlərini ehtiva edən "Elmi əsərlər" toplusunun təqdimatı keçirilib.**

Topluda Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Sonaxanım İbrahimova, Əməkdar rəssam, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Sevda Sadıxbəyova, Xalq artisti, dosent Kamilla Hüseynova, Əməkdar artist Sənan Hüseynli, Əməkdar mədəniyyət işçisi Mayra Almaszadə və başqa mütəxəssislərin xoreoqrafiya sənəti, musiqi sənəti, sənətşünaslıq, kulturologiya və filologiya sahələrində apardıqları tədqiqat işlərindən bəhs edən əsərlər dərc edilib.

Akademiyanın professor-müəllim, tələbə heyətinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan rektor, Əməkdar elm xadimi, professor Timuçin Əfəndiyev bu gün Azərbaycanda elmə, təhsilə, mədəniyyətə böyük önəm verildiyini deyib: "Elm adamlarımız, ziyalılarımız, görkəmli incəsənət xadimlərimiz mədəniyyət tariximizi yaşatmalı, gələcək nəsillərə ötürməlidir. Təqdimatına yığışdığımız "Elmi əsərlər" toplusu bu baxımdan mühüm əhəmiyyət kəsb edir".

Digər çıxışçılar Bakı Xoreoqrafiya Akademiyasının 3 illik fəaliyyəti müddətində yaradıcılıq işləri ilə yanaşı, "Elmi əsərlər" toplusunun nəşrini də tədris ocağının uğuru, bu əsərləri xalqımızın mədəniyyətinə töhfə kimi dəyərləndiriblər.

Sonda tədbir iştirakçılarına nəfis tərtibatda nəşr dilən "Elmi əsərlər" toplusu hədiyyə edilib.




---

**XX əsr özbək poeziyasının tanınmış nümayəndələrindən olan şair, tərcüməçi Zülfiyyə (Zülfiyyə İsrailova) yaradıcılığı ilə insanları saflığa, birliyə, ünsiyyətə səsləyib. Azərbaycan poeziyasının Özbəkistanda təbliğində də onun xidmətləri var.**

# İnsanı vüqarlı yaşamağa çağıran poeziya

## Özbək şairəsi Zülfiyyənin şeir dünyası



O, 1915-ci ildə Daşkənddə anadan olub. Qızlar pedaqoji məktəbində təhsil aldığı zaman şeirlər yazmağa başlayır. İlk şeiri 1930-cu ildə mətbuatda dərc edilir. Bundan sonra şeir və məqalələrlə mütəmadi olaraq qəzet və jurnallarda çıxışlar edir. 1932-ci ildə "Həyat səhifələri" adlı ilk şeirlər kitabı çapdan çıxır.

1934-cü ildə Zülfiyyə özbək şairi, dramaturq və tənqidçi Həmid Alimcanla ailə qurur. 10 il sonra həyat yoldaşı vəfat edir. Bundan sonra o, nəşriyyatda əmək fəaliyyətinə başlayır, həmçinin müxtəlif mətbuat orqanlarında jurnalist kimi çalışır. 1953-1985-ci illərdə "Özbəkistanın xatun qızları", "Səadət" jurnallarının baş redaktoru olur.

1956-cı ildə Asiya və Afrika yazıçılarının Hindistanda keçirilən konfransında iştirak edir. Araşdırmalarda qeyd olunur ki, vətənə döndükdən sonra konfransın təəssüratları əsasında "Müşairə" adlı poemasını qələmə alır. Müəllif poemada xalqlar dostluğunu, insanpərvərlik və s. ideyaları əks etdirib. Şairənin bu poeması Hindistanın Cəvahirləl Nehru beynəlxalq mükafatına layiq görülür.

Zülfiyyənin əsərləri Azərbaycan oxucularına da tanışdır. Şairənin şeirlərini Ələkbər Ziyatay, İlyas Tapdıq, Mirvarid Dilbazi dilimizə çevirib. Onu da qeyd edək ki, 1978-ci ildə Bakıda Özbəkistanın ədəbiyyat və mədəniyyət günləri keçirilir. Həmin ərəfədə özbək ədəbiyyatı nümunələrinin toplandığı "Nəğməkar Özbəkistan", "Nurlu diyar", "Balalara hədiyyə" antologiyaları işıq üzü görür. Görkəmli özbək şairi Əlişir Nəvainin "Yeddi səyyarə", Maqsud Şeyxzadənin "Əks-səda", Zülfiyyənin "Torpağa səcdə", Rəmz Babacanın "İşıqlar", Mirtemirin "Ülfət" və s. kitablar nəşrə hazırlanır.

Xalq şairi Mirvarid Dilbazi həmkarının yaradıcılığından bəhs edərkən deyib: "Onun əsərlərinin ən böyük məziyyəti onların obrazlılığındadır. Onun mövzuları müxtəlif, boyaları rəngarəng, poeziyası nikbindir. Bu nikbin poeziya insanı yüksəlməyə, vüqarlı yaşamağa, mətanətli olmağa çağırır. Zülfiyyə vətənpərvər, insanpərvər şairdir".

Şairə "Göyçədağ" əsərində yazır:

*Göyçədağ vəsfini qazaxdan sorun,*
*Bu yerin havası eşqtək safdır.*
*Göldə əks olunan camalı onun*
*canlı kitabdır.*
*Daddım Göyçədağın saf qımızından,*
*Baharın ətrini duydum onda mən.*
*Uzandım otluğa, qırışlar bu an*
*itdi üzümdən.*
*Getdim, burada qoyub qəlbimi,*
*Lakin özümü dağların vurğunu saydım.*
*Dedim: "Göyçədağın nəğməsi təkin*
*nəğmə yazaydım!"*

Ədəbiyyatşünas, professor Pənah Xəlilov şairin poetik nümunələrini yüksək dəyərləndirərək yazır ki, bu lirikada yalnız Zülfiyyəyə məxsus fərdi duyğular və düşüncələr vardır. Bu duyğular taleyin zərbəsinə məruz qalmış nakam qadınların, ömrünü ailəsinə, ümidini qələminə bağlamış anaların və şairlərin könül aləmini təmsil edir.

Zülfiyyə yaradıcı fəaliyyətində tərcüməyə də yer verib. O, N.Nekrasovun, M.Kərimin, N.Hikmətin, M.Dilbazinin, M.Gülgünün, N.Rəfibəyli və H.Büllurinin bir sıra əsərlərini özbək dilinə çevirib. Azərbaycanlı müəlliflərin əsərini ana dilinə çevirməkdən məmnun olduğunu ifadə edib. Bir çıxışında deyib: "Azərbaycanın klassik şairi və ictimai xadimi Molla Pənah Vaqifin şeirlərini Nəvai dilinə çevirərkən böyük sevinc hissi duydum. Cəmi iki-üç cümlədə əks olunan ümman məhəbbəti şərh etməyə lüzum yoxdur".

Onu da qeyd edək ki, Azərbaycan ədəbi ictimaiyyəti tərəfindən sevilən Zülfiyyə Lənkəranın fəxri vətəndaşı olub.

Yaradıcılığı və ictimai fəaliyyəti hökumət tərəfindən yüksək qiymətləndirilən yazar 1965-ci ildə Özbəkistanın Xalq şairi adına, 1976-cı ildə SSRİ Dövlət mükafatına, 1985-ci ildə isə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb.

Maraqlı yaradıcılığı ilə daim xalqlar və insanlar arasında körpü salmağa çalışan şairə 1996-cı ildə vəfat edib.

**Savalan Fərəcov**

Bütün hallarda, əbədiyanar Söz şamımız. O tay-bu tay Azərbaycanın və Yaxın Şərqin maarif-mədəniyyət hədəfli uzaqvuran irfan artilleriyası. Toxunduğu ictimai-siyasi-sosial problemlərə adını daşıdığı yarıreal-yarıəfsanəvi Obraza məxsus - gah ovqataçan, gah gülüşsaçan priyomlarla yanaşıb, düzələsilərilə yollaşmış, üzüləsilərilə savaşmış, bu xalqın pis günə qoyulmuş "keçəl-küçəl"ini dilləndirməyə, "obrazavoyski" məmurlarını, "al molla"larını susdurmağa çalışmış analoqsuz Azərbaycan Qələm-Məbədi!..

# Əbədi "Molla Nəsrəddin"

## Milli varlığımızın 25 ilinin ilk yarısını özəl-özgüri, son parasını özgəvi-məcburi əks etdirməli olmuş azman Ayna...

Bu bənzərsiz mənəvi Qala, zaman-zaman aşınıb-yoxalası maddi qalalardan fərqli olaraq, əbədi qalacaq. Alnında da ali-ulu memarının - bu millətin misilsiz MİRZƏsinin, Mərd cəfakeş və Dərd "səfakeş"inin adı: Cəlil Məmmədquluzadə!

Bəli, həyat yoldaşını müalicə etdirmək üçün 1903-cü ildə (ovaxtlarçün Qafqazın universal mədəniyyət mərkəzi) Tiflisə aparan və məlum "Poçt qutusu" ilə burada tanış olduğu görkəmli ziyalı M.Şahtaxtlının ("Şərqi-Rus" qəzetinin redaktoru) diqqətini cəlb edən Cəlil jurnalist Ö.F.Nemanzadə və maarifpərvər tacir M.Bağırzadə ilə birləşərək, öz xalqının 25 illik tarix-taleyini əks etdirəsi bu jurnalın nəşrinə başlayır.

Ötən əsrin əvvəllərindən bu dahi Mirzəmiz və onun əqidə qələmdaşları qoca Şərqin müdrik təfəkkür təmsilçisi, lətif lətifələr kanı, baməzəlik rəmzi, şifahi "Xalq yazıçı"sı Molla Nəsrəddinin ad-timsalı ilə (başda "Azərbaycan nüfusu" olmaqla) xalqların yazan əlinə çevrildi. Millətinin, düşmənlər tərəfindən qurudulmağa çalışılan anlam dəryasına qarşısıalınmaz çay kimi axmış bu universal müəllifin özü isə belə deyirdi: "Molla Nəsrəddin"i zaman özü yaratdı"...

Dünyaya Gürcüstan paytaxtında (1906) göz açan bu jurnal "Tiflis, 7 aprel" adlı ilk məqalə-bəyannaməsilə bizi deyib gəlməyə başladı.

Bəndəniz bu məcmuənin yaranışını, dövrün (bəlkə də bütün dövrlərin) digər nəşr nümunələri ayağından, "nəşr edilməyə, çıxmağa başladı" kimi bəyandarlığında bir məsuliyyət qırıqlığı olduğunun fərqindədir; bu jurnal həmin tarixçədən etibarən bu xalqın mənəvi səmasında ədəb-irfan çaxmağa, təfəkküründəki qaranlıqlara məfkurəvi işıq saçmağa başlayıb! Və düz 25 il türk-müsəlman dünyasına xəlqi oyanış, milli-əxlaqi ucalış, artıq əsrə yaxındır ki, bar-varından bəhrələndiyimiz maarifçilik aşılayıb.

Ancaq... məlum bir şikəstəmizin sözü olmasın, niyə "Şəki-Şirvan-Qarabağ" və bunların ən "baş kəndi" olan Bakıda yox, -

**Məhz Tiflisdə?!.**

Ordinar cavablardan öncə deyək ki, bunun bir sıra "tarixi-müqəddəm" səbəblərilə yanaşı, elə həmin jurnaldakı "Dəmdəməki" istinadlı felyetonların birində ərz edilən "əmma"ları da vardı. O Dəmdəməki ki, Mirzə Cəlil bu öz təxəyyül qəhrəmanı ilə jurnal səhifələrində tez-tez "məktub"laşır, müxtəlif "milli biabırçılıq"larımızla (məsələn, "azyaşlı qızların çoxyaşlı kişilərə ərə verilməsi" və s.) bağlı belə-belə mükalimələr edirdi: "Ay Dəmdəməki, bu nə zadlardı sən yazıb göndərirsən bizə? Bəs heç fikirləşmirsənmi ki, mən də ehtiyatsızlıq edib, bunları məcmuəmizdə çap edərəm, Bakı qoçuları da namusa dolub çıxararlar tapançanı və səni orda və sonra da gəlib məni burda qanımıza qəltan edərlər?!"

Daha bir səbəbi onun dahi məsləkdaşları M.Ə.Sabirin "Düşdü bütün qəzetlər qiymətdən, ay can-ay can! Xalqın canı qurtardı töhmətdən, ay can-ay can!" kimi şeirlərində, Ü.Hacıbəylinin aşağıdakı felyeton fraqmentində: "Əcnəbi ölkələrdə qəzetlər bağlansa, noolar? Biri deyər: -Vay, kor oldum! O biri qışqırar: -Vay, kar oldum! Bir başqası məlul-məlul pıçıldar: -Vay, lal oldum... Bəs bizim Bakıda bağlansa, nə olar? Heç zad. Bir məşədi digərinə deyər: -Yaxşı, məşədi, bəs şorumuzu nəyə büküb satacağıq?.."

Bu jurnal həm də o çağ yaradıcılarımız üçün universal bir mədəni-mənəvi Ocaq idi; ümummilli nəşriyyat, ali auditoriya, ictimai nitqdən məhrum edilmiş aşağıların səsini qulağını yummuş yuxarılara çatdıran tribuna, "radio-televiziya" rolunu oynadı. Dövrün digər qəzet və jurnallarından fərqli olaraq, "Molla Nəsrəddin"də imzası görünən müəlliflərin (Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.Ə.Möcüz və b.) milli dəyər və təəssübkeşlik statusu birmənalı qarşılanırdı. O vaxta qədər də az yazmayan Mirzə Ələkbəri sonralar seçmələyib-sevdiyimiz Sabir kimi yetişdirib-təqdim edən də məhz bu jurnal oldu. Bu jurnalın nəinki təkcə o dövr qədir-qiymətini, habelə perspektiv şan-şöhrətini bilən məşhur alman və polyak rəssamlar - O.Şmerlinq və İ.Rotter də "Molla Nəsrəddin"çi olmaqdan qürur duyurdular. Böyük soydaşımız Əzim Əzimzadə isə "Molla Nəsrəddin"dəki işlərilə həm də milli karikatura yaradıcılığımızın bünövrəsini qoydu.




1906-cı ildən Tiflisdə alovlanan bu azərbaycandilli milli Yayım-Ocağımız 1918-ci ildə - özgürləşib Cümhuriyyətləşmiş doğma vətəninə - Bakıya köçdü. Lakin iki il keçməmiş milli-siyasi istiqlalımızı söndürən bolşevizm bu jurnalın da mətbu-söz müstəqilliyinə müdaxilələr etməyə başladı. Və bir vaxt "it boğuşdurmaq, hamamda yatmaq..." kimi "daha vacib işlər" ardınca gedənlərimizi deyib Bakıya gəlmiş Mirzə "Biz belə deməmişdik" qənaəti və ikiyə bölünmüş Vətənin cənubuna "daha çox yaramaq olar" ehtimalı ilə Təbrizə üz tutdu. Ancaq bu məcmuə orada da öz doğal məram-məqsədi platformasına sadiq qalaraq, "Əgər hər gün burada bir desyatin torpaq satılırsa, bu hesabla, İran torpaqları neçə ilə fövt olar?" ("Hesab dərsi") kimi felyetonlarla çıxış edir və cəmisi səkkiz nömrədən sonra yenidən Vətənin ərazicə "köhnə", siyasicə "yeni" tayına dönür...

1932-ci ilə - böyük naşirin vəfatına qədər nəşr edilən bu jurnalın Tiflisdə 340, Təbrizdə 8, Bakıda 400 sayı çıxır. Saylarının sayı-hesabı bəlli olsa da, mənəvi-mədəni qədir-qiyməti, milli oyanışımızda oynadığı rolu intəhasız...

Bu jurnalın -

**"Deyib gəldiyi"**

hədəflərin sayı-hesabı yox; bir boynuyoğun, yekəqarın adam görən kimi, onu məmur - qorxulu bəndə hesab edib oturduğu yerdən dik atılaraq, təzim edənlər ("İrəvan müsəlmanları"), bütün milli, xəlqi dərdləri unudub, üstünə milçək ləkəsi düşmüş bir ərəb əlifbası hərfinin məna dəyişiminin (uşaq "olub", yoxsa "ölüb"?!) "çort"una getmiş "həriflər" ("Nigarançılığın sonu"), beş-üç il Rusiyada yaşayıb, geri qayıdarkən ağzıdualı anasına "qofta" (küftə) bişirməyi təklif edən "abrazovannı"lar, bir əcnəbi müxbirin hər dəfə "Meşədə gördüklərim" başlığı altında yazdığı məqalələrə silsilə mövzu olan "bəndəyebənzərlər"...

Təkcə öz "meşəliklərimiz"lə yox, yaxınuzaq cəngəl-əngəlliklərlə də məşğul olan jurnalın 9 aprel 1911-ci il sayından:

"Russkoye znamya" qəzeti Krım tatarlarından belə qorxur ki, elə bil yapondan qorxur. Keçən nömrələrin birində həmin qəzet yazmışdı ki, "Baxçasaray şəhəri İstanbuldan göndərilmiş siyasi agentlər yuvasıdır; qəhvəxanalarda, məktəblərdə xəyanət tədarükü görülür". Rəhmətliyin oğlu İsmayıl bəyin də işi-gücü qurtarıb, "Tərcüman"ın 14-cü nömrəsində başlayıb "Russkoye znamya"nın yazdıqlarını yalana çıxarmağa. Qasprinski cənabları bunu bilməli olsun ki, "Russkoye znamya" və onun cəmi ...başlı firqədaşları indiyə kimi Baxçasaray tatarlarını bir şey hesab eləyirdilər, amma "Tərcüman"ın 14-cü nömrəsini oxuyub gördülər ki... Məsələn, bir camaatın ki ticarət sinfinin rəisi ola - S.M.Toppuzov, üləmasının başçısı ola - Xəlil, Əbdürrəhman, Hacı Əmir, Seyid İbrahim, Ağa Mir Kərim, Axund Məhəmməd Bağır, bələdiyyə rəisi ola - oxumaq və yazmaq bilmədiyindən qəzet və jurnal görmək istəməyən Süleyman Mirzə Krımtayev, - o camaatın içi boşdur.

Bəy-xanlarımız hər il mülklərindən on min manat mədaxil ola-ola, naçalnik divanxanasında muzdur-mirzəlik eləyirlər ki, bir kokardalı böyük gözəndə baş yendirsinlər.

Budur bizim işlərimiz, biz buyuq..."

Yaxud: "...Tutaq ki, hökumət qoymur məktəblərdə ana dilimizi öyrənək. Bəs ana dilimizi istəməyi, ana dilimizə məhəbbət etməyi, ana dilimizi xoşlamağı kim qoymur?.. Bəs kim bizi öz dilimizdən utanmağa və öz dilimizlə danışmağı ar bilməyə vadar edir?.."

Bu qədim və... ritorik ifadə ilə desək, "kifayət qədər" başıbəlalı xalqın az qala bir qərinəyədək keşməkeşli tərcümeyi-halını yazmış jurnal haqda yazılmış yüzlərlə -

**"Xatirə"lərdən -**

elə onun öz qələmdaş-məsləkdaşlarından olmuş böyük (həm də "məccani"!) araşdırıcı Qulam Məmmədli imzalısını təqdim etməyi qərarlaşdırdım:

"1907-ci ilin iyununda "Molla Nəsrəddin"də C.Məmmədquluzadənin imzasıyla "Erməni və müsəlman övrətləri" adlı bir felyeton çıxdı. Mətbuat səhifələrində ruhanilər bu yazının əleyhinə çıxış etdilər. Bu arada jurnalı bağladılar. Bir ay sonra jurnal nəşrə başladı. Sonralar tapdığımız sənədlərdən məlum oldu ki, jurnalın bağlanmasında mollaların heç bir iştirakı olmayıb. Sən demə, Osmanlıdan Sultan Əbdülhəmid Rusiya imperatoruna yazıbmış ki, sənin ölkəndə çıxan "Molla Nəsrəddin" məni rüsvay edir, xahiş edirəm, onu bağlatdırasan və Nikolay da dərhal bu xahişi yerinə yetirir.




İkinci dəfə jurnal 1917-ci il oktyabr inqilabından bir ay sonra bağlandı. Səbəb - İrandan qayıdan rus soldatlarının yol uzunu İran, Türkiyə və Azərbaycanın kənd və şəhərlərini talamaları haqda M.Cəlilin sağ əli Əliqulu Qəmküsarın jurnalda çap olunmuş "Dinmə, danışma ona, saldatdı o" şeiri idi. Jurnal üçüncü dəfə 1921-ci ildə Təbrizdə bağlandı. Çünki Mirzə Cəlil İran hökumətinin "Jurnal farsca çıxmalıdır" israrı ilə razılaşmadı və: "Təbrizdə ermənilər erməncə qəzet çıxarır, siz isə Azərbaycan dilində jurnal nəşr etməyə icazə vermirsiniz. Onda, icazə verin, "Molla Nəsrəddin"i erməni dilində nəşr edim" kinayəsilə istəyinə nail oldu, lakin orada çapdan çıxan səkkiz nömrə bizim tanıdığımız "Molla Nəsrəddin" olmadı.

Şimalımıza qayıtdıqdan sonra M.Cəlil ilə Mərkəzi Komitə arasında "jurnal necə çıxacaq və nədən yazacaq?" məsələsində mübahisə başladı. Nəhayət, 1922-ci ilin dekabrında birinci nömrə (Təbrizdən sonra) çıxdı. Gərək ki, ikinci nömrədə Azərbaycan "sağmal inək" şəklində təsvir edildi; əlivedrəli, bankə və digər qab-qacaqlı (İngiltərə, Fransa, İtaliya, ABŞ, Rusiya qiyafəli) adamlar inəyə hücum edib sağmaq istəyir... Karikatura böyük hay-küyə, susmaz müzakirələrə səbəb oldu. M.Cəlilin cavabı isə çox qısa: "Azərbaycan neftini kəndlilərimiz gedib qonşu respublikalardan birə-on qat bahasına alıb yandırırlar ki, qaranlıqda qalmasınlar".

Çox danışıq getsə də, M.Cəlil təslim olmadı. Hələ keçmişdən bu məcmuənin əleyhinə yazanlardan biri olan M.S.Ordubadini jurnalın üstündə hərbi komissar təyin etdilər. Ondan icazəsiz heç bir yazı gedə bilməzdi. M.Cəlil Ordubadiyə yazdığı məktubunda deyir: "Səid, bildiyini elədin, gələn nömrədən mənim adım redaktor kimi o jurnalda yazılsa, mən bilirəm hara şikayət edəcəyəm!"

1921-ci ildən başlayaraq "Molla Nəsrəddin" əvvəlki simasını itirməyə başladı. Çox ağır mənəvi və maddi çətinliklərlə üzləşən Mirzə Cəlil 1930-cu ildə bərk xəstələndi, 31-in sonunda ağır vəziyyətə düşdü, 32-nin ilk ayının 4-də dünyanı tərk elədi".

Bu ağrılı xatirənin sonunda bu misilsiz Ustad-sələfimizin cismaniyyilə ilgili işlədilmiş son iki kəlmə haqda çox fikir-zikr etmək mümkün olsa da, onun sıravi sələflərindən olan bəndəniz belə bir poetik-patetik qafiyə ilə kifayətlənir: o hadisədən sonra qələm adamlarının bir qismi çox həqiqətləri dərk elədi...

**Tahir Abbaslı**




## Azərbaycan

**6 aprel 1717** - Böyük şair Molla Pənah Vaqif (1717-1797) Qazax mahalının Qıraq Salahlı kəndində doğulub. Yaradıcılığı Azərbaycan poeziyasının mühüm mərhələsini təşkil edir. Qarabağ xanlığında İbrahimxəlil xanın vəziri olub.



**6 aprel 1939** - Kinorejissor, Xalq artisti, professor Tofiq Hüseyn oğlu İsmayılov (1939 - 25.3.2016) anadan olub. Filmləri: "Gilas ağacı", "Mən mahnı qoşuram", "Musiqi müəllimi", "Vulkana doğru", "Oxuyur Müslüm Maqomayev" və s.

**6 aprel 1953** - Əməkdar artist Kazım Ənvər oğlu Abdullayev Bakıda anadan olub. 20 il Sumqayıt teatrında çalışıb, 2005-ci ildən Milli Dram Teatrının aktyorudur. Filmlərə, teleseriallara çəkilib.

**7 aprel 1906** - Azərbaycanın ilk satirik nəşri olan "Molla Nəsrəddin" jurnalının birinci sayı çapdan çıxıb. Böyük ədib Cəlil Məmmədquluzadənin redaktoru olduğu jurnal 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr edilib. Azərbaycan xalqının mütərəqqi qüvvələrini öz ətrafında toplamış jurnalda Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Əzimzadə və başqaları fəaliyyət göstərirdilər.

**7 aprel 1930** - Tanınmış jurnalist Azad Şərif (1930 - 24.12.2009) anadan olub. "Azərinform"a (indiki AzərTAc) rəhbərlik edib, "Molodyoj Azerbaydjana" qəzetinin redaktoru olub.



**7 aprel 1959** - Xalq yazıçısı Çingiz Akif oğlu Abdullayev anadan olub. 1988-ci ildə işıq üzü görən "Mavi mələklər" romanı ilə tanınıb. Sonralar detektiv janrında digər əsərləri ilə dünya miqyasında məşhurlaşıb. 160-dan çox roman və povestin, çoxsaylı ssenarilərin, hekayələrin müəllifidir. Əsərləri 30-dək dilə tərcümə olunub.

**8 aprel 2000** - Bakıda böyük türk (oğuz) eposu "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyi türkdilli ölkələrin dövlət başçılarının iştirakı ilə qeyd olunub.

**9 aprel 1905** - Şair, ədəbiyyatşünas, tərcüməçi Cəfər Rəmzi (Cəfər Balaəmi oğlu İsmayılzadə; 1905 - 11.09.1996) Bakının Mərdəkan kəndində doğulub. Azərbaycan ədəbiyyatında işlədilən ərəb, fars sözləri lüğətinin, "Deyilən söz yadigardır" adlı üççildlik toplunun tərtibçisidir.



**9 aprel 1946** - Tanınmış aktyor və rejissor Ceyhun Mirzəyev (1946 - 5.3.1993) Ağdam rayonunun Abdal Gülablı kəndində anadan olub. "Ögey ana" filmində (1958) İsmayıl rolu ilə məşhurlaşıb. "Dəli Kür", "Yenilməz batalyon" , "Qanun naminə", "Yol əhvalatı" və s. filmlərdə çəkilib. Rejissor işi: "Bəyin oğurlanması" (V.Mustafayevlə birgə), "Fəryad" (eyni zamanda baş rolun ifaçısı).

**10 aprel 1923** - Yazıçı-dramaturq Salam Qədirzadə (1923 - 16.11.1987) anadan olub. "46 bənövşə", "Nar çiçəyi nağılı", "Sevdasız aylar", "Sən olmasaydın" və s. nəsr əsərləri, "Şirinbala bal yığır", "Hardasan, ay subaylıq", "Həmişəxanım" komediyalarının müəllifidir.

## Dünya

**6 aprel 1812** - Rus yazıçısı, filosof Aleksandr İvanoviç Gertsen (1812-1870) anadan olub. 1847-ci ildən Avropada mühacirətdə yaşayıb. Əsərləri: "Olanlar və düşüncələr", "Oğru sağsağan", "Kimdir günahkar", "Doktor Krupov".

**6 aprel 1826** - Fransız rəssamı, simvolizmin nümayəndəsi Qustav Moro (Gustave Moreau, 1826-1898) anadan olub. Əsərləri: "Edip və Sfinks", "Yupiter" və s.

**6 aprel 1942** - Amerika rejissoru və ssenaristi Barri (Barry) Levinson anadan olub. Filmləri: "Yağış adamı" ("Oskar" mükafatı, 1989), "İfşa", "Quldurlar" və s.

**7 aprel 1883** - İtaliya rəssamı və heykəltəraşı, futurizm cərəyanının banilərindən biri Cino Severini (1883-1966) anadan olub.



**7 aprel 1889** - Çili şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1945) laureatı Qabriela Mistral (Gabriela Mistral - əsl adı Lucila Godoy Alcayaga; 1889-1957) anadan olub.

**7 aprel 1939** - Amerika kinorejissoru, ssenarist Frensis Ford Koppola (Francis Ford Coppola) anadan olub. "Xaç atası", "Xaç atası-2" filmləri "Oskar" mükafatına layiq görülüb.

**7 aprel 1954** - Amerika və Çin (Honqkonq) aktyoru, rejissor, prodüser Ceki Çan (Jackie Chan - əsl adı Çan Kon San) anadan olub. Filmləri: "Bronksda haqq-hesab", "Şanxayda günorta", "Qadağan olunmuş krallıq".

**7 aprel 1964** - Hollivud aktyoru Rassel Krou (Russell Crowe) Yeni Zelandiyada anadan olub. Filmləri: "Qladiator" (Maksimus, "Oskar", 2001), "Dənizlərin sahibi", "Robin Qud" və s.

**8 aprel 1692** - İtaliya bəstəkarı, skripkaçı Cüzeppe Tartini (1692-1770) anadan olub. "Şeytan sonatası" ("Sonate du diable") ilə məşhurluq qazanıb.

**8 aprel 1859** - Alman filosofu, fenomenologiyanın banisi Edmund Husserl (1859-1938) anadan olub. Əsərləri: "Avropa elmlərinin böhranı və transendental fenomenologiya", "Məntiqi tədqiqatlar".



**8 aprel 1973** - İspan rəssamı, heykəltəraş Pablo Pikasso (Pablo Ruiz Picasso; 25.10.1881 - 1973) vəfat edib. Kubizm cərəyanının banilərindən biridir. Məşhur əsərləri: "Avinyonlu qızlar", "Şar üzərində qızcığaz", "Gernika".

**9 aprel 1821** - Fransa şairi və ədəbiyyatşünası Şarl-Pyer Bodler (Charles Pierre Baudelaire; 1821-1867) anadan olub.



**9 aprel 1933** - Fransız aktyoru Jan Pol Belmondo (Jean-Paul Belmondo) anadan olub. Filmləri: "Son nəfəsdə", "Oğru", "Missisipidə həyəcan", "Taleyin şıltağı", "Professional", "Doktor Popol" və s.

**10 aprel 1847** - Amerika jurnalisti, naşir Cozef Pulitser (Joseph Pulitzer, 1847-1911) anadan olub. Jurnalistika aləmində məşhur Pulitser mükafatının yaradıcısıdır.

**10 aprel 1932** - Misir və Amerika aktyoru Ömər Şərif (əsl adı Mişel Demetri Şalhub; 1932 - 10.7.2015) İsgəndəriyyə şəhərində doğulub. Filmləri: "Ərəbistanlı Lourens", "Çingiz xan", "On üçüncü döyüşçü", "Sirli ada" və s.

**10 aprel 1937** - Tatar əsilli rus şairəsi Bella Axmadulina (1937-2010) anadan olub. "Titrəmə", "Musiqi dərsləri", "Çovğun", "Şam", "Bağ" və s. poetik topluların müəllifidir.

*Hazırladı: Vüqar Orxan*

# Bilik Fondunun mühazirələri




Ölkə Prezidentinin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncamına uyğun olaraq Bilik Fondu müxtəlif elm-təhsil müəssisələrində, idarə və təşkilatlarda silsilə maarifləndirici tədbirlərini davam etdirir. Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Peşə Təhsil Mərkəzində AMEA Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Mübariz Ağalarovun "Bakıda 1918-ci ilin mart soyqırımı" mövzusunda mühazirəsi təşkil olunub.

Növbəti maarifləndirici mühazirə Emal Sənayesi üzrə Bakı Peşə Təhsil Mərkəzində gerçəkləşib. Tarix İnstitutunun elmi işçisi Bəxtiyar Həsənov "XX əsrdə azərbaycanlılara qarşı ermənilərin apardığı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri" mövzusunda çıxış edib.

Mühazirəçilər iştirakçıların çoxsaylı suallarını cavablandırıblar.

# AFİŞA

**7-10 aprel**

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı**
**Nizami küçəsi 95**

| | | |
|---|---|---|
| 8 aprel | Ə.Bədəlbəyli - "Qız qalası" - balet | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı**
**Füzuli meydanı 1**

| | | |
|---|---|---|
| 7 aprel | M.S.Ordubadi - "Qətibə İnanc" | 19.00 |
| 8 aprel | İ.Əfəndiyev - "Boy çiçəyi" (ingilis dilində titrlərlə) | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı**
**Zərifə Əliyeva küçəsi 8**

| | | |
|---|---|---|
| 7 aprel | M.F.Axundzadə - "Hacı Qara"<br>İ.Sadıqov - "Molla Nəsrəddinin beş arvadı" | 12.00<br>19.00 |
| 8 aprel | A.Xayt, A.Kurlyandski - "Bir dayan, canavar!" (rus dilində)<br>E.Sabitoğlu, T.Vəliyeva - "Bankir adaxlı" (ingilis dilində titrlərlə) | 12.00<br>19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı**
**Xaqani küçəsi 7**

| | | |
|---|---|---|
| 7 aprel | V.Neverov – "Nağılı tap! – 1"<br>U.Şekspir – "Yay gecəsində yuxu" (ingilis dilində titrlərlə) | 12.00<br>19.00 |
| 8 aprel | V.Neverov – "Nağılı tap! – 5"<br>N.Rəsulzadə - "Məmə" | 12.00<br>19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı**
**Nizami küçəsi 72**

| | | |
|---|---|---|
| 7 aprel | Y.Şvarts - "Çirkin ördək balası"<br>U.Şekspir - "Romeo və Cülyetta" (ingilis dilində titrlərlə) | 12.00, 14.00<br>19.00 |
| 8 aprel | A.Lindqren - "Uzuncorab Pippi"<br>Ə.Əmirli - "Hasarın o üzü" | 12.00, 14.00<br>19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı**
**Neftçilər prospekti 36**

| | | |
|---|---|---|
| 7 aprel | Rus xalq nağılı - "Turp"<br>Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 12.00, 14.00<br>16.00 |
| 8 aprel | M.Seyidzadə - "Cırtdan"<br>Azərbaycan xalq nağılı - "Şəngülüm, Məngülüm" | 12.00, 14.00<br>16.00 |

**Yuğ Dövlət Teatrı**
**Neftçilər prospekti 36 (Kukla Teatrının binası)**

| | | |
|---|---|---|
| 7 aprel | V.Klim - "Medeya Sekvensiya–01" | 19.00 |
| 8 aprel | G.Dumbadze - "Məhşər günü" | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı**
**Azadlıq prospekti 10**

| | | |
|---|---|---|
| 7 aprel | E.Rzayev - "Mənim balığımsan" | 18.00 |
| 8 aprel | B.Xanızadə - "Fələkət və İnsan"<br>S.Hacıyeva - "Dejavü" | 14.00<br>18.00 |

**Heydər Əliyev Sarayı**
**Bülbül prospekti 35**

| | | |
|---|---|---|
| 7 aprel | Tofiq Quliyev adına estrada mahnı janrında I Respublika müsabiqəsinin qala konserti | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi**
**Dənizkənarı Milli Park**

| | | |
|---|---|---|
| 10 aprel | "Yeni nəsil dəvət edir" layihəsi – " Saz və söz dünyası" adlı konsert | 19.00 |

**Azərbaycan Dövlət Mahnı Teatrı**
**R.Behbudov küçəsi 10**

| | | |
|---|---|---|
| 7-8 aprel | "Günay" Uşaq Teatrının tamaşası | 12.00 |

# Kazanda "İblis"in "Təntənə"si

**Tatarıstan Respublikası Mədəniyyət Nazirliyi 27 mart - Dünya teatr günündə Kazanda "Təntənə" ("Tantana") teatr mükafatının qaliblərini elan edib. Q.Kamal adına Tatarıstan Dövlət Akademik Teatrında keçirilən mərasimdə ötən il milli teatr məkanında ən yaxşı birinci və ikinci plan qadın-kişi rolları və ən yaxşı tamaşa üçün nəzərdə tutulmuş "İlin hadisəsi" mükafatları sahiblərinə təqdim edilib.**





S.Amutbayev adına Minzələ Tatar Dövlət Dram Teatrının böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin eyniadlı əsəri əsasında hazırladığı "İblis" tamaşası ən yaxşı tamaşa olaraq qiymətləndirilib.

Yakut rejissoru, Saxa Respublikasının Əməkdar incəsənət xadimi Sergey Potapovun quruluş verdiyi "İblis" faciəsinin ilk tamaşası ötən ilin noyabrında baş tutub. Əsər "Kiçik şəhər teatrları" federal layihəsinin vəsaiti hesabına səhnələşdirilib. "Qızıl maska" Rusiya Milli Teatr mükafatının laureatı Sergey Potapov dünyanın müxtəlif ölkələrində səhnələşdirdiyi tamaşalarla çox tanınır.

"İblis" pyesini Minzələ teatrına Potapov özü təklif edib. "Tatar-inform" agentliyinə müsahibəsində rejissor bu seçim barədə belə deyib: "Pyesi təklif edəndə teatrın razılaşacağına inanmırdım. Amma onlar gözlədiyimdən cəsur çıxdılar, dərhal razılaşdılar və materialı tez tapdılar". Teatrın direktoru Robert Şaymərdanov Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinə müraciət edərək pyesi əldə edib. Əsərin poetik mətnini isə Q.Tukay adına Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi Rkail Zaydulla tatar dilinə çevirib. Tamaşada teatrın tanınmış aktyorları - Tatarıstanın xalq artistləri Rüstəm Mullin, Hafiz Xammatullin çıxış edirlər. İblis obrazı isə teatrın 24 yaşlı aktyoru Rüstəm Zinnurova həvalə edilib. İblis gənc aktyorun səhnədə ilk ciddi işi olsa da, tamaşanın "İlin hadisəsi" mükafatına layiq görülməsi onun bu qəliz obrazın öhdəsindən bacarıqla gəldiyini sübuta yetirir.

"Tatar-inform" yazır ki, Azərbaycan dramaturqunun "İblis" faciəsi Rusiya Federasiyasında ilk dəfə səhnələşdirilib. Tatar teatrı bu tamaşa ilə beynəlxalq və Rusiya festivallarında çıxış etməyi planlaşdırır.

## "Qızıl adam"ın dünya turnesi

# Moskvadan başladı

### Ekspozisiyanın may-iyun aylarında Bakıda nümayişi də gözlənilir

**Aprelin 3-də Ümumrusiya Dekorativ-Tətbiqi və Xalq Sənəti Muzeyində "Böyük çölün irsi: zərgərlik sənəti şedevrləri" sərgisinin açılışı olub. Sərgi Qazaxıstan Milli Muzeyinin saxlancındakı unikal eksponatları səyyar nümayişə çıxarıb. Həmin eksponatların arasında məşhur arxeoloji tapıntı - "Qızıl adam" da var.**




Qazaxıstanın simvollarından hesab olunan "Qızıl adam" tamamilə qızıldan düzəldilmiş sak döyüşçüsünün geyimidir. 1969-cu ildə Qazaxıstan arxeoloqu Kamal Akişev tərəfindən Almatı vilayətindəki İssık kurqanından tapılmış "Qızıl adam" bəşəriyyətə qədim türk tayfalarının unikal mədəniyyətinin yeni səhifəsini açıb. Döyüşçü ilə birlikdə qiymətli metallardan düzəldilmiş minlərlə əşya, geyim elementləri, məişət əşyaları, runik yazı fraqmentləri aşkarlanıb. Arxeoloqlar həmin kurqanın kameralarından ümumi sayı 4 min 800 ədəd olan bəzək əşyası tapmışdılar ki, bu da zənginliyinə görə firon Tutanhamonun sərdabəsindən sonra dünyada ikinci sərdabə deməkdir.

Sərgidə Qazaxıstan muzeyinin fondlarından bizim eradan əvvəlki VII-III əsrlərə aid edilən qızıl məmulatları, eləcə də XIX-XX əsrin ortalarınadək zərgərlik sənətinə aid edilən 170 predmetdən ibarət gümüş qadın zinət əşyaları yer alıb.

Sərgi Qazaxıstan Milli Muzeyinin "Qızıl adam"ın dünya muzeylərinə yürüşü" adlı beynəlxalq layihəsi çərçivəsində təşkil olunub. Məqsəd dünya ictimaiyyətini Avrasiyanın böyük çöl qurşağının zəngin mədəni irsi ilə tanış etməkdir. Layihənin marşrutu 2020-ci ilədək MDB, Asiya, Avropa və Amerika ölkələrini əhatə edəcək.

Qeyd edək ki, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi ilə Qazaxıstanın Milli Muzeyi arasında əldə olunan razılığa əsasən, "Böyük çölün irsi: zərgərlik sənəti şedevrləri" sərgisinin 2018-ci ilin may-iyun aylarında Bakıda da nümayişi nəzərdə tutulub.

# Afyonkarahisarda klassik musiqi festivalı



Türkiyənin Afyonkarahisar şəhərində 17-ci Klassik Musiqi Festivalı keçirilir. Yerli valiliyin və bələdiyyənin təşkil etdiyi festival boyunca (2-12 aprel) dünya şöhrətli sənətçilərin, tanınmış musiqiçilərin, ədəbiyyat xadimlərinin çıxışları nəzərdə tutulur.

Tarixi abidə olan "Millət hamamı"nın binasında verilən açılış konsertində Çexiyanın "Flautus Vocis" nəfəs alətləri qrupu çıxış edib. Konsertdən sonra festivalın bədii rəhbəri Hüseyn Başkadem bu fikirləri söyləyib: "Yeganə məramımız Afyonkarahisara mədəniyyət və sənəti gətirməkdir. Keçmişdə yaşadığımız ən böyük problem yüksək səviyyəli sənətçilərin buraya gəlməməsi idi. Lakin indi görürsünüz ki, Türkiyənin ən önəmli sənət və söz adamları buradadır, xarici ölkələrdən də qonaqlarımız var. Gələnilki festivalda daha kimləri şəhərimizə gətirə biləcəyimiz barədə indidən düşünürük. Amma qarşılaşdığımız ən böyük çətinlik bu festivalı davamlı təşkil etməklə bağlıdır. Yəni hər hansı festivalın təməlini qoymaq çətin deyil, onu yaşatmaq çətindir. Biz isə bunun öhdəsindən gəlirik".



## Musiqi dinləmək istəyirsən?

# Erkindikə gəl!..

Qırğızıstanın "AKİpress" agentliyi məlumat verib ki, ölkə paytaxtında artıq ənənəyə çevrilmiş "Musiqili Erkindik» festivalının builki ilk tədbiri aprelin 14-də keçiriləcək. Həmin gün Bişkekin ən gözəl istirahət məkanlarından sayılan Erkindik bulvarının müxtəlif guşələrində musiqiçilər solo və qrup şəklində açıq havada çıxış edəcəklər. Paytaxt əhalisi və şəhərin qonaqlarını musiqi dinləməklə yanaşı, gənc və həvəskar fotoqrafların əsərlərindən ibarət sərgi ilə də tanışlıq gözləyir.

# "Səbat" finaldadır

**Tanınmış özbək rejissoru Rəşid Malikovun "Səbat" ("Sabot") filmi 40-cı Moskva Beynəlxalq Kino Festivalının rəsmi müsabiqə proqramına daxil edilib.**



Filmin süjeti real hadisələr üzərində qurulub. Baş qəhrəman Seydulla (Kərim Mirxodiyev) Əfqanıstan müharibəsində xidmət etmiş komandirdir. Müharibə ilə bağlı xatirələri onu rahat buraxmır, həlak olmuş dostu da daim onun "yanındadır". Süjetə görə, ağır xəstə olan Seydulla ölümündən əvvəl məktəbdə şagirdlərə kömək edir, həm də öz yarımçıq işlərini bitirir...

"Səbat" insanın rastlaşa biləcəyi ən gərgin münaqişələrdən birinə - insanın öz-özü ilə münaqişəsinə həsr olunub. Filmdə Özbəkistanın Kərim Mirxodiyev, Seydulla Moldaxanov, Nigora Kariboyeva, Bekzod Xamrayev və digər məşhur aktyorları çəkiliblər.

Yeri gəlmişkən, 40-cı Moskva Beynəlxalq Kino Festivalı aprelin 19-dan 26-dək keçiriləcək. Bu festival "A" sinif festival kateqoriyasına, yəni dünyanın ən nüfuzlu kinoforumlarına aid edilir.

*Hazırladı: Gülcahan Mirməmməd*

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

# Mədəniyyət

www.medeniyyet.az

6 APREL 2018
27 [1517]





# “Bütün dünya - bir sərgi”

Bakı Ekspo Mərkəzində 17-ci dəfə keçirilən Azərbaycan Beynəlxalq “Turizm və səyahətlər” sərgisinə (“AİTF 2018”) 20 ölkədən 277 şirkət və təşkilat qatılıb. “Bütün dünya - bir sərgi” şüarı altında keçirilən sərgidə ziyarətçilər 90-dan çox xarici turizm istiqaməti və ölkə daxilində istirahət imkanları ilə tanış ola biləcəklər. Sərgi aprelin 7-də başa çatacaq.





# Türk dünyasının rəngləri

## TÜRKSOY-un Novruz proqramları Bolqarıstanda başa çatdı



**Xəbər verdiyimiz kimi, TÜRKSOY-un Novruz bayramı münasibətilə təşkil etdiyi ənənəvi konsert proqramları Türkiyədə - 2018-ci ildə “Türk dünyasının mədəniyyət paytaxtı” olan Kastamonu şəhərində, ardınca Ankara və İstanbulda gerçəkləşdikdən sonra Balkan ölkələrində davam edib.**

10 ölkədən 70-dən çox sənətçinin iştirak etdiyi “Bütün rənglər ilə Türk dünyası” adlı proqram iki həftə boyunca Bosniya və Herseqovina, Çernoqoriya, Albaniya, Makedoniya və Bolqarıstanı əhatə edib. Konsertlərdə ölkəmizi aşıq Əli Zeynalov təmsil edib.

Bosniya və Herseqovinanın Zenica şəhərində baş tutan konsertə xalq böyük maraq göstərib. Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Türkiyənin bu ölkədəki səfirliyi və “Dostluq körpüləri” təşkilatının iştirakı ilə gerçəkləşən tədbirdə TÜRKSOY baş katibinin müavini Fırat Purtaş da iştirak edib.

TÜRKSOY Novruz qrupunun Zenicadan sonrakı səfəri Bosniya və Herseqovinanın Sarayevo və Mostar şəhərləri olub. Qədim Mostar şəhərində verilən üçüncü konsert proqramı Türkiyənin bu şəhərdəki baş konsulluğu, Yunus Əmrə İnstitutu və TÜRKSOY-un işbirliyi ilə baş tutub. Tədbirə Bosniya və Herseqovina Federasiyasının elm və təhsil naziri Elvira Dilberoviç, şəhərin bələdiyyə başqanı, ətraf mühit və planlaşdırma naziri və digər qurumların rəhbərləri qatılıb.

Aprelin 2-də isə tədbirlər proqramı Makedoniyanın Qostivar şəhərində davam edib. Türkiyənin Üsküpdəki (Skopye) səfirliyi, Yunus Əmrə İnstitutu, TÜRKSOY, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi və Beynəlxalq Vizyon Universitetinin işbirliyi ilə gerçəkləşdirilən konserti Qostavarda yaşayan türklərlə yanaşı yerli sənətsevərlər də böyük maraqla izləyib.

Mərasimdə Beynəlxalq Vizyon Universitetinin rektoru Fadil Hoca, TÜRKSOY-un baş katibi Düsen Kaseinov, tədbirə fəxri qonaq kimi qatılan Türkiyə prezidentinin baş müşaviri Yalçın Topçu və digərləri çıxış ediblər.

Səhnədə növbə ilə yer alan Türk dünyası sənətçiləri Novruzun ənənəvi simvolu olan səməninin təqdimatını keçirikdən sonra öz ölkələrinin rəqs və folklor elementlərini nümayiş etdiriblər. Konsertin sonunda qarşılıqlı hədiyyə və plaket təqdimatları olub.

TÜRKSOY-un “Bütün rəngləri ilə Türk dünyası” Novruz proqramları aprelin 4-5-də Bolqarıstanda Sofiya və Filbe konsertləri ilə başa çatıb.

**Mehparə Sultanova**
***Ankara***

# 2018-ci ilin ən yaxşı filmləri

## “Esquire” jurnalının reytinqinə görə

ABŞ-ın populyar kişi jurnalı “Esquire” 2018-ci ilin ilk dörd ayı üçün ən yaxşı filmlərin siyahısını açıqlayıb. Kino ekspertlərin rəyinə görə, Natali Portman və Aleks Harlendin baş rolda çəkildiyi “Annihilasiya” (“Annihilation”) adlı elmi-fantastik dram siyahıda birinci pillədə qərarlaşıb. Filmdə Portman anomal zonaya ekspedisiyaya rəhbərlik edən alim rolunu ifa edib.

İkinci pillədə “Sən heç vaxt burada olmamısan” adlı triller yer alıb. Filmdə baş rolları Xoakin Feniks və Linn Remsi ifa edib. Üçüncü pillədə isə baş rolları Rassel Harbo və Endi Makdauellin oynadığı “Ard-arda məhəbbət” romantik melodramı yer alıb.

«Annihilasiya» filminin dünya premyerası fevralın 23-də olub. Tənqidçilərin filmə yüksək qiymət verməsinə baxmayaraq, ekran əsərinin prokatından hələ 40 milyon dollarlıq çəkiliş xərcini çıxarmaq mümkün olmayıb. “Esquire”nin ilk onluğuna həmçinin “24 kadr” adlı sənədli film, “Paddinqtonun sərgüzəştləri 2”, “Qara pantera”, “Paranormal hal”, “Sevimli ölkə”, “İtlər adası” və “Noyabr” filmləri daxil olub.

Qeyd edək ki, “Esquire” jurnalı 1933-cü ildə ABŞ-da ”uğurlu centlmenlər” üçün təsis edilib. Əsasən mədəniyyət və incəsənət, moda və stil, biznes və siyasət, texnologiya və avtomobil, qida və sağlamlıq kimi mövzulara yer verir.

Jurnal 30-dək ölkədə nəşr olunur.

**İlona**

**Baş redaktor:**
Vüqar Əliyev

Qəzet 1991-ci ildən çıxır.

**Ünvanımız:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Tel.:** (012) 431-57-72; 431-28-79; 430-16-79
**Tel/faks:** (012) 431-28-79;
**E-mail:** qazet@medeniyyet.az

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “B-Z” mətbəəsində çap olunmuşdur.

Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə olunur.

KAPİTAL BANKın
Yasamal filialı kod: 200037
VÖEN 9900003611
M/h AZ37NABZ01350100000000001944
SWIFT BIK AIIBAZ2X
H/h AZ98AIIB33080019443300232103
VÖEN 1300338641
Lisenziya №AB 022279
İndeks 0187

**Buraxılışa məsul:**
Fariz Yunisli

**Tiraj:** 5215

*Materiallardakı faktlara görə müəlliflər cavabdehdir.*